USAID
FROM THE AMERICAN PEOPLE

Global Civil
Society Strengthening

COUNTERPART
INTERNATIONAL

## BMT-NİN QADINLARA QARŞI AYRI-SEÇKİLİYİN LƏĞVİ KOMİTƏSİNƏ ALTERNATİV

# HESABAT

---

## ALTERNATIVE REPORT TO THE COMMITTEE ON THE ELIMINATION OF DISCRIMINATION AGAINST WOMEN (CEDAW)

9 789952 822595

# BMT-NİN QADINLARA QARŞI AYRI-SEÇKİLİYİN LƏĞVİ KOMİTƏSİNƏ ALTERNATİV HESABAT

# ALTERNATIVE REPORT TO THE COMMITTEE ON THE ELIMINATION OF DISCRIMINATION AGAINST WOMEN (CEDAW)

Bakı 2013

**Birləşmiş Millətlər Təşkilatının Qadınlara Qarşı Ayrı-Seçkiliyin Ləğvi Üzrə Komitəsinin 20 iyul-07 avqust 2009-cu il tarixli 44-cü sessiyasında qəbul etdiyi Azərbaycan dövlətinın 4-cu dövrü hesabatı ilə bağlı Yekun qeyd şərtlərin və tövsiyy**ələrlə bağlı həyata keç**irilən hüquqi və praktiki fəaliyyətlərin monitorinqinə dair**

**HESABAT**

**ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID)** vəsaiti ilə **Counterpart İnternational təşkilatının Qadın İştirakçılığı Proqramı** çərçivəsində maliyyələşən və "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi və Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi liqasından ibarət QHT Koalisiyası tərəfindən həyata keçirilən "**Qadınlara qarsı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın ictimai vəkillik mexanizmlərindən istifadə"** layihəsi çərçivəsində hazırlanmışdır

*"Bu Alternativ Hesabat Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAİD) vasitəsilə Amerika xalqının dəstəyi sayəsində mümkün olmuşdur. Məzmuna görə [qrant alan təşkilatın adını daxil edin] məsuliyyət daşıyır və heç də USAİD və ya Amerika Birləşmiş Ştatları Hökumətinin fikirlərini əks etdirmir."*

ISBN 978-9952-8225-9-5

**© ABŞ BİA (USAID)**
**© Kaunterpart İnterneşnl**
**© "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi**
**© Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası**

# MÜNDƏRİCAT

**1.Koalisiya üzvləri haqqında ......................................................................................4**

**2.GİRİŞ...........................................................................................................................5**

**3.KONVENSİYADA ƏKS OLUNMUŞ HÜQUQLARIN**
**TƏMİNATI İSTİQAMƏTİNDƏ ÖHDƏLİKLƏRİN İCRASI ....................................6**
**3.1. Erkən Nigahların qarşısının alınmasına yönələn tədbirlər ...................................6**
3.1.1.Erkən Nigahları doğuran əsas səbəblər ....................................................................7
3.1.2.Erkən nigahların qarşısının alınmasına yönələn maarifləndirici tədbirlər .................8
3.1.3.Erkən nigahlarla bağlı statistika .............................................................................10

**3.2. Qadınlara qarşı zorakılıq ........................................................................................11**
3.2.1.Qadınlara qarşı zorakılığa qarşı qanunvericilik .....................................................12
3.2.2.Məişət zorakılığına qarşı effektiv mübarizə aparmağa mane olan digər səbəblər ...19
3.2.3.Məişət zorakılığına qarşı mübarizə üzrə qanunvericiliyin tətbiqi sahəsində vahid dövlət fəaliyyətinin olmaması ..........................................................................20
3.2.4.Məişət zorakılığının qarşısının alınması üçün cəza və sanksiyalarla bağlı qanunvericiliyin vəziyyəti .....................................................................................21

**3.3. İnsan alveri .............................................................................................................23**
3.3.1. İnsan Alverinə qarşı mübarizə sahəsində qanunvericiliyin vəziyyəti .......................24
3.3.2.İnsan alverinə qarşı mübarizə ilə bağlı yeni normativ-hüquqi aktlar .........................27
3.3.3.İnsan alverinə qarşı mübarizə tədbirləri .................................................................27
3.3.4. İnsan Alveri Qurbanlarına yardımlar ......................................................................29
3.3.5. İnsan Alverinin qarşısının alınmasına yönələn məlumatlandırma və maarifləndirmə tədbirləri .................................................................................................31
3.3.6. Fahişəliyin qarşısının alınmasına yönələn tədbirlər ...............................................32

**3.4.TÖVSİYYƏLƏR .......................................................................................................33**
3.4.1. Ailə münasibətlərinin rəsmiləşdirilməsi və erkən nigahlarla bağlı .........................33
3.4.2.Qadınlara qarşı zorakılığın aradan qaldırılması ilə bağlı ........................................33
3.4.3.İnsan alverinə qarşı mübarizənin effektivliyinin artırılması ilə bağlı .......................34

## 1. KOALİSYA ÜZVLƏRİ HAQQINDA

**"Təmiz Dünya» Qadınlara Yardım İctimai Birliyi**

1998-ci ildən fəaliyyət göstərən «Təmiz Dünya» Qadınlara Yardım İctimai Birliyi İnsan Alveri, ailədaxili zorakılıq, HİV/AİDS və qadın hüquqlarının müdafiəsi sahəsində uzunmüddətli və qısamüddətli layihələr həyata keçirməkdədir.

Təşkilat, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə rəsmi qeydiyyat üçün müraciət etmiş və 2006-cı il sentyabrın 29 da 1106-Q14-2228 nömrəsi ilə dövlət qeydiyyatdan keçmişdir.

Fəaliyyət göstərdiyi illər ərzində, «Təmiz Dünya» Qadınlara Yardım İctimai Birliyi, peşəkar təlimçi və ekspertlərlə birgə, Azərbaycanın bütün rayon və şəhərlərində, qadınların zorakılıqdan müdafiəsi mövzusunda tədbirlər keçirmiş və bu fəaliyyəti davam etdirməkdədir. Təşkilat milli və xarici QHT koalisiyaları ilə sıx əməkdaşlıq edir.

«Təmiz Dünya» Qadınlara Yardım İctimai Birliyi, qadınlar üçün və qadınlar vasitəsilə cəmiyyətin inkişafına çalışır.

Təşкilatın məramı: Qadınlara qarşı baş verən bütün zorakılıq hallarının qarşısının alınması.

Təşкilatın əsaslandığı dəyərlər: insan hüquq və azadlıqlarına hörmət, eləcə də təşкilata müraciət edən insanlardır. İnsan resursları təşkilatın söyкəndiyi ən vacib dəyərdir

**İçəri şəhər, Məmmədyarov küçəsi 18, m.5, AZ 1010, Bakı, Azərbaycan**
**Tel: (+994 12) 497 10 58, (+994 12) 511 11 51, Fax: (+994 12) 497 10 58**
**E-mail: tamizdunyasu@gmail.com, web: www.cleanworldaz.com**

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası**

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası 1997-ci ilin iyun ayında təsis olunub. Qeyri Hökumət Təşkilatıdır. Ədliyyə Nazirliyi tərəfindən 18 mart 2000-ci il tarixində dövlət qeydiyyatına alınıb.

**Təşkilatın idarəetmə orqanı: Təşkilatın ali orqanı ümumi yığıncaqdır.** Ümumi yığıncaqlar arası dövrdə təşkilatın fəaliyyətinə İcraiyyə Komitəsi rəhbərlik edir. İcraiyyə Komitəsi öz sırasından İcraiyyə Komitəsinin sədrini seçir. **Təşkilatın missiyası və əsas fəaliyyət istiqamətləri**: Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının əsas missiyası ölkənin sosial sferasında insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində hüquqi, ictimai, maarifləndirici və vəkillik fəaliyyətlərini həyata keçirməkdir. Sosial iqtisadi hüquqların müdafiəsi ilə yanaşı təşkilat həmçinin fundamental hüquq və azadlıqların təmin olunması istiqamətində də ixtisaslaşmışdır. Təşkilat işini əsasən monitorinqlər, məhkəmə çəkişmələri, ictimai kampaniyalar, maarifləndirmə və vəkillik fəaliyyətləri şəkilində qurur. Təşkilatın müvafiq dövlət qurumları ilə əməkdaşlıq münasibətləri vardır.

Təşkilatın əsas fəaliyyət istiqamətlərindən biri də BMT-nin Müqavilə Orqanlarına hökumət hesabatına alternativ hesabatlar təqdim etməkdir.

**Bakı Şəhəri, Ə.Hüseynov küçəsi, 1061-ci məhəllə, ev 7, mənzil 347**
**Telefon: +(994 12) 530 86 25, Mobil : +(994 50) 314 49 15,**
**Faks: +(994 12) 510 42 71**
**e-mail: clrpl@clrpl.az, www.clrpl.az**

## 2. GİRİŞ

Azərbaycan Respublikası 1995-ci ilin 30 iyun tarixində Birləşmiş Millətlər Təşkilatının "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına (CEDAW) qoşulmuşdur. "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi üzrə Konvensiyanın Fakultativ Protokol Azərbaycan Respublikası tərəfindən 6 iyun 2000-ci il tarixində imzalanmış və 1 iyun 2001-ci ildə ratifikasiya edilmişdir.Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə görə "*hamı qanun və məhkəmə qarşısında bərabərdir"*, "*kişi ilə qadının eyni hüquq və azadlıqları vardır".*

Konstitusiyanın 25-ci maddəsinin 3-cü hissəsi isə beynəlxalq normalarda bərabərliyin təmin olunması üçün müəyyən olunan standartı ehtiva edir. Belə ki bu maddəyə əsasən "*irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq*" dövlət hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir və göstərilən əlamətlərə görə hüquq və azadlıqların məhdudlaşdırılmasına yol vermir. Sadalanan əlamətlərə görə heç kəsə zərər vurula bilməz, imtiyaz verilə bilməz və ya imtiyazın verilməsindən imtina oluna bilməz. Dövlət orqanlarına çıxış, qərar qəbul edən şəxslərlə münasibətlər zamanı da bərabərlik prinsipi tətbiq olunur.

Konstitusiyanın daha bir maddəsi (maddə 34) ailə münasibətlərində ər və arvadın hüquq və vəzifə bərabərliyini elan edir.

Əmək Məcəlləsinin 16-cı maddəsinə əsasən "Əmək münasibətlərində *vətəndaşlığ ına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə,* əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə *vəziyyətinə,əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi,əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların vəgüzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır".*

Həmin maddədə xüsusi olaraq göstərilir ki, "*immunçatışmazlığı virusu ilə yaşayan şəxslərin işləməsinə yol verilməyən peşə növləri və vəzifələr istisna olmaqla, onları insanın immunçatışmazlığı virusuna yoluxması səbəbinə görə işə qəbul etməkdən, işdə irəli çəkməkdən imtina etmək və ya işdən azad etmək qadağandır".* Həmçinin bu xəstəliyi olan şəxslər barədə işəgötürəndə məlumat olduqda onu açıqlaya bilməz.

Məcəllənin bu maddəsinə görə ayrı-ayrı kateqoriya insanlar (yaşı 18-dən az olanlar, qadınlar, əlilliyi olan şəxslər) üçün nəzərdə tutulan imtiyazların və əlavə təminatların müəyyən edilməsi diskriminasiya sayılmır.

İş yerində diskriminasiyaya görə məsuliyyət nəzərdə tutulur və diskriminasiyaya məruz qalan işçi hüquqlarının təmin olunması üçün məhkəməyə müraciət edə bilər.

Ümumiyyətlə hazırda ölkə qanunvericiliyi gender bərabərliyinin təmin olunması üçün hüquqi əsasları təmin edir. Lakin praktikada bərabərliyin təmin edilməsi problem olaraq qalmaqdadır.

Qadınların məşğulluq sahəsində həm üfiqi, həm də vertikal ayrı-seçkiliyə qalma halları vardır.Bu gizli ayrı-seçkilikdir, lakin mövcuddur.

Qadınların ictimai və siyasi həyatda iştirakçılıq göstəriciləri kişilərə nisbətdə aşağıdır.

Qadınların bir qismi məişət zorakılığının və insan alverinin potensial qurbanlarıdır. Ölkədə erkən nigahların və nigahsız (qeyri rəsmi nigah) ailə quranların sayı azalmır.

Yuxarıda sadalanan problemlərin əksəriyyəti qanunvericiliklə deyil, steriotiplər, pis adətlər və bəzi regionlarda dini xurafatın təsirlərinin yüksək olması ilə bağlıdır.

# 3. KONVENSİYADA ƏKS OLUNMUŞ HÜQUQLARIN TƏMİNATI İSTİQAMƏTİNDƏ ÖHDƏLİKLƏRİN İCRASI

Birləşmiş Millətlər Təşkilatının Qadınlara münasibətdə ayrı seçkiliyin ləğvi üzrə Komitəsi 20 iyul-07 avqust 2009-cu il tarixində keçirdiyi 44-cü sessiyada Azərbaycan Hökumətinin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formaların ləğvi üzrə Konvensiya" üzrə öhdəliklərin yerinə yetirilməsinə dair 4-cü dövrü hesabatı, həmçinin insan hüquqlarını müdafiə edən təsisatların alternativ hesabatlarını nəzərdən keçirərək və hökumətin hesabatını müzakirə edərək "Ümumi xarakterli qeyd-şərtlər və tövsiyyələr" irəli sürmüşdür. Aşağıda Komitənin bəzi irad və tövsiyyələri ilə bağlı Azərbaycan Dövləti tərəfindən həyata keçirilən hüquqi, sosial, iqtisadı xarakterli fəaliyyətlərə dair alternativ hesabat təqdim edilir.

## 3.1. Erkən Nigahların qarşısının alınmasına yönələn tədbirlər

### Diskriminasiyalı qanunlar

15. Komitə, nümayəndə heyəti rəhbərinin parlamentin 2009-cu ilin 3-cü rübündə keçiriləcək iclasında Ailə Məcəlləsinə qadınlar və kişilər üçün eyni 18 yaş həddində nigah yaşının müəyyən olunması məqsədilə dəyişiklikləri nəzərdən keçirəcəyi barədə təqdim etdiyi informasiyanı minnətdarlıqla qeyd edir. Bununla belə, Komitə kişilər və qadınlar üçün müxtəlif minimal nigah yaşının mövcudluğundan, qadınlar üçün bu yaş həddinin 17 olmasından əvvəlki kimi narahatdır.

16. **Komitə iştirakçı-ölkələri Konvensiyanın 16-cı maddəsinə və Komitənin 21 saylı ümumi tövsiyyəsinə müvafiq olaraq qadın və kişilər üçün 18 yaşın eyni nigah yaşı kimi müəyyən edilməsi üçün Ailə məcəlləsinə dəyişikliklərin qəbul edilməsini tezləşdirməyə israrla çağırır.**

### Ailə münasibətləri

39. Komitə iştirakçı-dövlətdə erkən və qeydiyyatsız nigahların bağlanması təcrübəsinin qalmasından və bu sahədə statistik məlumatların olmamasından narahatdır.

40. **Komitə iştirakçı-dövləti məlumat-izahedici kampaniyaların həyata keçirilməsini davam etdirməyə və erkən nigahların qarşısının alınması və bütün nigahların lazımi qeydiyyatdan keçirilməsi işində dini rəhbərliklə qarşılıqlı əlaqə yaratmağa çağırır. Komitə iştirakçı-dövlətə öz növbəti məruzəsinə Azərbaycanda yetkinlik yaşına çatmamış qızlarla nigahlar, dini və ya ənənəvi nigahlar, o cümlədən belə nigahların yayılma səviyyəsi, dinamikası və hüquqi statusu barədə məlumatları daxil etməyə dair əvvəlki tövsiyyələrini bir daha təsdiq edir.**

Komitənin narahatçılığı və irəli sürülən tövsiyyənın yerinə yetirilməsi, eyni zamanda ölkənin Ailə qanunvericiliyində nigah yaşına münasibətdə qadınlar və kişilər arasında yaş fərqinin ayrı seçkilik kimi qiymətləndirilməsini nəzərə alaraq Azərbaycan parlamenti Ailə Məcəlləsinə müvafiq dəyişikliklər və əlavələr etmişdir.

Ailə Məcəlləsinin 10.1. maddəsindəki "Nigah yaşı qadınlar üçün 17, kişilər üçün 18 yaş müəyyən olunur", cümləsi "Azərbaycan Respublikasında nigah yaşı 18 yaş müəyyən olunur" cümləsi ilə əvəz olunmuşdur. Azərbaycan Respublikası Prezidenti 15 noyabr 2011-ci il tarixli Fərmanı ilə Məcəlləyə edilən dəyişikliyi təsdiq etmişdir. Prezident 22 dekabr 2011 tarixli daha bir fərmanı ilə dəyişikliklə bağlı praktiki fəaliyyətlər və digər normalara dəyişikliklər edilməsi ilə bağlı müvafiq fəaliyyətlərin həyata keçirilməsini mərkəzi icra hakimiyyəti orqanlarına həvalə etmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası könüllük prinsipini nəzərə alaraq, 34-cü maddənin 2-ci hissəsində nigaha daxil olmaq hüququnu təmin edir. Həmin maddənin 3-cü hissəsi bəyan edir ki, "nigah və ailə dövlətin himayəsindədir". Öz növbəsində 2000-ci ilin 01 iyul tarixində qüvvəyə minmiş Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 1-ci bölməsi nigah münasibətlərinin əsaslarını müəyyən edir. Ailə Məcəlləsinin 5-ci maddəsi ailə üzvləri arasındakı münasibətləri mülki-hüquq münasibətləri kimi müəyyən edir.

Nigahın bağlanması və ona xitam verilməsi Ailə Məcəlləsinin 2-ci bölməsi ilə müəyyən edilir. Ər və arvad arasındakı bərabərlik prinsipi onların azad əmək fəaliyyətini seçmələrində (maddə 29.3) və mülki münasibətlərində (maddə 32) təsbit olunmuşdur. Bu normalar tam şəkildə İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 7 saylı Protokolunun 5-ci maddəsinin formal tələblərinə uyğundur. Orada deyilir: "Ər və arvad özləri və uşaqları arasında özəl münasibətlərdə bərabər hüquqa malikdirlər və eyni məsuliyyət daşıyırlar"[1].

### 3.1.1. Erkən Nigahları doğuran əsas səbəblər

Qanunvericiliyin və dövlət nəzarətinin sərtləşdirilməsi fonunda ölkədə erkən nigahların dinamikası inkişaf tendensiyasına malikdir. Bu hal xüsusən ölkənin ucqarlarında, xürafatın, pis adət ənənələrin və dini təsirlərin yüksək olduğu regionlarda daha qabarıq nəzərə çarpır. Aparılan tədqiqatlar erkən nigahları doguran əsas səbəblərin aşağıdakılar olduğunu göstərir.

- İcbari təhsli başa vurmuş qızların təhsilə və əmək bazarına çıxış imkanlarının məhdud olması səbəbindən onların gələcək planlarının olmaması.

Bir sira regionlarda sosial iqtisadi şərait icbari təhsili başa vurmuş qızların cəmiyyətdə müstəqil seçim etmək imkanlarını məhdudlaşdırır. Təhsilə, məşğulluğa çıxış**ın məhdud olması, ictimai və mədəni həyatda iştirak imkanının olmaması və bunu**n **səbəbi olaraq marginallaşma ona gətirir ki, icbari təhsili bəsit şəkildə (formal olaraq) başa vurmuş qızlarda gələcək həyatla bağlı ərə getməkdən başqa hər hansı bir per**spektivi mümkünsüz edir.

- Sosial iqtisadi şəraitin çətin olması.

**Ölkənin bəzi regionlarında yaşayış şəra**itinin aşağı olması erkən və rəsmi nigah olmadan evlənmələrə səbəb olur. Ailələr bir növ artıq "yükü" üzərlərindən götürürlər. Lakin əksəriyyət hallarda uğursuz nigah həmin ailələr üçün əlavə problemlər yaradır. Bir çox hallarda belə qızlar tezliklə evə dönməli olurlar və əksəriyyət halda öz körpə uşaqları ilə.

- Xurafat və pis adətlər.

[1] Ceyhun Qaracayev. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi. Mənbə: http://femida.az/2012/05/04/az%C9%99rbaycan-respublikasinda-m%C9%99is%C9%99t-zo-rakiligi-il%C9%99-mubariz%C9%99-n%C9%99z%C9%99riyy%C9%99-tarix-v%C9%99-t%C9%99crub%C9%99/

Erkə**n nigahların baş verməsində dini xurafatın və pis adətlərin rolu əhəmiyyətlidir. Ölkə qanunvericiliyinə əsasən dini nigah yalnız rəsmi nigahdan sonra bağlana bilər. Bəzi din xadimləri bu qanunu pozaraq dini nigah-kəbin bağlayırlar. Belə şəxslərə qarşı effektiv təsir mexanizmləri yoxdur. İnternet kommunikasiya texnologiyalarının inkişafı da bəzən bu qanunsuz kəbinlərin kəsilməsində istifadə olunur. Məsələn**, yerli mollalar belə kəbinləri kəsmədikdə İKT vasitələrindən istifadə etməklə qonşu ölkələrin din xadimləri (məsələn, İran) on-line "xidmətlər" təklif edirlər.

- Cəzasızlıq mühitinin mövcudluğu.

Baxmayaraq ki CM erkən nikahlarla bağlı ( məcburi nikah) Cinayət məsuliyyəti nəzərdə tutulub, lakin, baş vermiş hadisələrlə bağlı cinayət statistikasında bu əmələ görə cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin sayı dəqiq məlum deyil.

- Təhsildən yayınan qız uşaqlarının ailələri arasında profilaktik tədbirlərin aparılmaması, həmin ailələr üçün dəstək proqramlarının mövcud olmaması.

Bunu əlavə etmək olar?

18 yaşından aşağı olanların nigaha girməsi (istisna hallar qanunvericiliklə müəyyən olunur) qadağan olunsa da və bunun üçün məsuliyyət nəzərdə tutulsa da yerlərdə müxtəlif vasitələrdən istifadə olunur.

Belə vasitələrdən biri barədə yuxarıda qeyd edilmişdir. Nigahın rəsmiləşdirilməməsi və dünyaya gələn övlardlara doğum haqqında şəhadətnamələrin alınmaması ilə bağlı problemlər.

"Əgər kişinin yaşı nigah yaşına daxil, qadının yaşı daxil deyilsə, bir müddət keçdikdən sonra olur ki, qadın da artıq nigahının rəsmiləşdirilməsini istəyir. Bir çox hallarda da onunla qarşılaşırıq ki, kişi artıq nigahını rəsmiləşdirmək istəmir. Çünki onun artıq başqa qadınla rəsmi nigahı olur. Belə olduqda qadın artıq nigahı bağlanmamış onu pozma qərarına gəlir. Bu kimi hallarda da ən çətin vəziyyətdə qalanlar da qadınlar olur"[2].

Erkən nigahların mənfi təsirlərindən biridə belə nigahlardan doğulan uşaqlarla bağlı olur.Zəruri yaş həddində olmayan haldauşaqların doğulması rəsmiləşdirilmir. Bu yalnız qadın zəruri yaş həddinə çatdıqdan sonra həyata keçirilir. Belə uşaqlar tibb müəssisələrində qeydiyyatda olmur, peyvəndləşdirilmir və nəticədə uşaq ölümünün göstəriciləri də ölkədə yüksək səviyyədə qalır.

Erkən nigahlarla bağlı dəqiq statistika yoxdur.Müvafiq dövlət qurumları belə nigahların uçotunu aparmağa cəhd etsələrdə tam statistik göstəriciləri əldə etmək olduqca mürəkkəbdir.

### 3.1.2. Erkən nigahların qarşısının alınmasına yönələn maarifləndirici tədbirlər

Erkən nigahların sosial və tibbi nəticələrinin neqativ olmasına dair təşviqat və maarifləndirmə tədbirləri son illərdə xeyli artmışdır. Belə tədbirlər Ailə,Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İnsan Hüquqları üzrə Müvəkkil(Ombudsman ) ofisi, beynəlxalq donor təşkilatlar, yerli vətəndaş cəmiyyəti qurumları tərəfindən təşkil olunur.

[2] Erkən nigah: səbəb və nəticələri (Araşdırma). Fərəh Fədi. Mənbə: http://azadqadın.az/index.php?newsid=5916#.URym76Utz-s

2008-ci ildən fəaliyyətə başlamış Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası mütamadı olaraq məişət zorakılığının və erkən nigahların qarşısının alınmasına yönələn təşəbbüslərə maliyyə yardımı edir. Bu baxımdan son bir neçə ildə uğurlu fəaliyyətlər vardır.

“Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyi və Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasından ibarət QHT Koalisiyası 2012-2013-cü illərdə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Maliyyə dəstəyi ilə Counterpart İnternational təşkilatının Qadın İştirakçılığı Proqramı çərçivəsində həyata keçirdiyi “Qadınlara münasibətdə ayrı-seçkiliyin ləğvində məlumatlandırma, maarifləndirmə və müdafiə mexanizmlərindən istifadə” layihəsinin icrası zamanı erkən nigahı doğuran səbəblərlə bağlı tədqiqat aparmış və maarifləndirici seminarlar təşkil etmişdir.

Üfüq” Gənclərin İnkişafı Naminə İctimai Birliyi Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondu tərəfindən maliyyələşdirilən “Erkən nigahlara qarşı gənclərin sosial fəallığının artırılması” adlı layihə çərçivəsində regionlarda tədbirlər həyata keçirmişdir. Layihənin məqsədi regionlarda yaşayan gənclər arasında daha çox yayılan erkən nigah hallarının qarşısının alınması istiqamətində məlumatsızlığın aradan qaldırılmasına, insan hüquqlarının pozulması, zorakılıq halları, təhsildəki problemlərlə bağlı zərərin azaldılmasına töhfə vermək, dövlət və vətəndaş cəmiyyətinin səylərinin əlaqələndirilməsi, gənclərin hüquqlarının müdafiəsi və ailə institutunun gücləndirilməsi olmuşdur.

Maarifləndirmə ilə bağlı tədbirlərin sayı artmaqda davam edir.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət KomitəsininAilə problemləri üzrə şöbə müdiri Gülnarə Məmmədova bu istiqamətdə komitənin fəaliyyəti barədə qeyd etmişdir ki, “Erkən nigahlarla mübarizə naminə onun yaratdığı fəsadlar haqqında əhalinin tam maarifləndirilməsi üçün lazımi addımlar atırıq. Əsas məqsədimiz budur. Belə ki, gənclər bu fəsadlar barədə məlumatlı olsunlar ki, sonra böyük problemlər yaşamamaq üçün erkən nigaha daxil olmasınlar. Eyni zamanda, valideynlər öz övladlarını, qohumlarını erkən nigahdan çəkindirsinlər və buna vadar etməsinlər. Odur ki, biz məktəblərdə müntəzəm şəkildə maarifləndirmə işləri aparırıq. Biz ötən ildən etibarən rayonlarda yerli İcra Hakimiyyətləri ilə birgə bu barədə işlər görürük”[3].

Lakin tədqiqatlar göstərir ki, həyata keçirilən maarifləndirici tədbirlər əsasən şəhərlərdə həyata keçirilir və bilavasitə erkən nigahın baş verdiyi ucqar yaşayış məntəqələri əhatə olunmur. Eyni zamanda təhsil səviyyəsi yüksək olmayan təbəqələr üçün uyğun təlim modullarının hazırlanmasına ehtiyac vardır.

“Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyi tərəfindən həyata keçirilən “Milli adət və ənənələrin qadın hüquqlarının reallaşmasına təsiri” adlı tədqiqat çərçivəsində keçirilən sorğuda erkən nigaha dair suallar da əks olunmuşdur. Rəyi soruşulan “respondentlərin 15%-i nigaha daxil olma yaşının 18-dən aşağı olduğunu qeyd ediblər. Bu göstəricinin reprezentativliyi əsasında, ölkəmizdə bu yaşda ailə həyatı quranların az olmadığı haqqında müəyyən fikirlər söyləyə bilərik.

[3] Erkən nigah: səbəb və nəticələri (Araşdırma). Fərəh Fədi. Mənbə: http://azadqadın.az/index.php?newsid=5916#.URym76Utz-s

Erkən nigah problemi hazırda cəmiyyətimizi narahat edən ən mühüm məsələlərdən biridir. Bunun müxtəlif səbəblərdən irəli gəldiyini bildirənlər də az deyil. Bizim toxunduğumuz mövzuda bu faktların Azərbaycanın adət-ənənələrindən, xalq deyimlərindən, zərb məsəllərindən qaynaqlandığı bildirilir. Sözsüz ki, bu faktın yer almasında sosial-iqtisadi amillərin rol oynaması danılmazdır. Zərb məsəlləri, xalq deyimləri məhz sosial-iqtisadi amillərin təsiri altında yaranmışdır. Məsələn, qızını erkən yaşdan ərə verənlər mövcud qanunvericiliyə əhəmiyyət vermədən bu addımı atırlar. Məsuliyyətə cəlb olunduqda, ya iş-işdən keçmiş olur, ya da ki, bunu asanlıqla elin adətləri ilə əlaqələndirərək alibi qazanmaq istəyirlər. Baxmayaraq ki, bu cür aktlar qadağan olunsa da, hələ sovetlər dönəmində də baş verirdi.

Bəzi mütəxəsisslər bu hadisənin baş verməsində birbaşa sosial-iqtisadi amillərin böyük rol oynadığını bildirirlər.

Çarpaz təhlillər zamanı bu respondentlərin əsasən natamam təhsillilər sırasından olmaları müəyyənləşmişdir.

### 3.1.3. Erkən nigahlarla bağlı statistika

Dövlət Statistika Komitəsi 2010-cu ilin oktyabr ayında ölkə ərazisində "Qızların erkən nigaha daxil olması və rəsmi nigahdan kənar doğum hallarının öyrənilməsinə dair" statistik müayinə keçirib. Komitədən verilən məlumata görə, müayinə 2009-cu ildə Ədliyyə Nazirliyinin Qeydiyyat şöbələri tərəfindən erkən nigaha daxil olma və rəsmi nigahdan kənar doğum halları qeyd olunan ev təsərrüfatlarında aparılmış və sorğu ilə 50 yaşadək 19711 qadın əhatə olunmuşdur. Sorğu edilən qadınların 37 faizi 18 yaşa çatmamış, 29 faizi 18-19 yaşlarında, 25 faizi 20-24 yaşlarında, 6 faizi 25-29 yaşlarında, 3 faizi isə 30 yaşdan yuxarı nigaha daxil olublar. Erkən yaşda ərə gedən qadınların təxminən üçdə biri 2009-cu ildə, qalanları isə əvvəlki illərdə nigaha daxil olublar. Erkən yaşda ailə qurmuş qadınların 39 faizi şəhər, 61 faizi kənd sakinləridir. 18 yaşınadək ərə gedən qadınların 37 faizi öz istəyi ilə, 26 faizi valideynlərinin təzyiqi altında, 11 faizi ailənin maddi vəziyyətinin çətin olduğundan, 8 faizi ərinin maddi cəhətdən imkanlı olmasına görə, 6 faizi qaçırıldığına, 2 faizi hamilə olduğuna görə, qalan 10 faizi isə digər səbəblərdən erkən nigaha daxil olublar. Səbəblər üzrə erkən nigaha daxil olma halları şəhər yerlərində ərinin maddi cəhətdən imkanlı olmasına və hamilə olduğuna görə, digər səbəblərdən isə kənd yerlərində üstünlük təşkil edib. Erkən yaşda ərə gedən qadınların atalarının 22 faizi, analarının 13 faizi ali və orta ixtisas təhsilə, üçdə ikisi ilk peşə-ixtisas və tam orta təhsilə, müvafiq olaraq 12 və 19 faizi ümumi orta təhsilə malik olub. Evlənən zaman belə qadınların ərlərinin 3 faizinin yaşı 18-19, 69 faizinin 20-24, 26 faizinin 25-29 və 2 faizinin yaşı 30-dan yuxarı olub. Eyni zamanda onların 22 faizinin ali və orta ixtisas, 68 faizinin ilk peşə ixtisas və tam orta, 10 faizinin ümumi orta təhsili olub. Erkən nigaha daxil olan qadınların atalarının əksəriyyəti kənd təsərrüfatı, nəqliyyat işçisi, fəhlə, analarının - evdar qadın və kənd təsərrüfatı işçisi, ərləri isə - kənd təsərrüfatı, ticarət, nəqliyyat və tikinti sahələrində məşğul olmuş, eləcə də fəhlə, fermer və işsiz olub. Müayinə zamanı sorğu olunan qadınların rəsmi nigahda olmamasının səbəbləri araşdırılaraq müəyyən olunub ki, onların 41 faizinin müvafiq sənədləri qaydasında olmadığından, üçdə birinin vaxtı ilə yaşı nigah yaşına çatmadığından, 26 faizinin isə digər səbəblərdən Ədliyyə Nazirliyinin müvafiq qurumlarında qeydiyyata

alınmayıblar. Kənd yerlərində yaşı nigah yaşına çatmayanların sayı daha çox olub. Müayinənin nəticələrinə əsasən sorğulanan qadınların 90 faizinin uşaqları olub və onların 97 faizi stasionar, 3 faizi isə ev şəraitində dünyaya gəlib. Ev şəraitində doğan qadınların 54 faizi bunun səbəbini maddi çətinlik, 28 faizi isə doğum evinin uzaqda yerləşməsi ilə izah edirlər. 18 yaşa çatmayan və nigahda olan qadınların yarısından bir qədər çoxu ilk peşə-ixtisas və ya tam orta, 45 faizi isə ümumi orta təhsili olub. İbtidai təhsili olan 2 faiz qadının üçdə biri təhsilini davam etdirmək niyyətində olmayıb. Bununla belə, müayinə ilə əhatə olunan bütün qadınların 47 faizi, eləcə də 18 yaşadək qadınların 39 faizi hesab edir ki, qadınların mütləq ali və ya orta ixtisas təhsili olmalıdır. Müayinənin məlumatlarına əsasən qadınların 89 faizi hesab edir ki, qızların qaçırılma halları öz razılığı ilə baş verir, 11 faizi isə zorakılıq yolu ilə həyata keçirilir. Sorğu olunanların 46 faizi qaçırma hallarının əsas səbəbini qızın valideynlərinin nigaha narazılığında, 39 faizi qızın ailəsində maddi çətinliklərdə, 15 faizi qızlar arasında maarifləndirmə səviyyəsinin aşağı olmasında görürlər. Respondentlərin yarısı hesab edir ki, qızlar ərə 20-24 yaşlarında getməlidir, 41 faizi - 18-19 yaşında, 6 faizi - 18 yaşa qədər. Qadınların 67 faizi hesab edir ki, ailədə nigah haqqında qərarı nigaha daxil olanların özləri qəbul etməli, 30 faizinin fikrincə isə qızların ərə getmə məsələsini valideynlər həll etməlidirlər. Qadınların 68 faizinin, o cümlədən 18 yaşa qədər olanların 56 faizinin erkən nigahın qadınların sağlamlığına ziyanlı olmasından xəbərləri var. Zorla erkən nigah bağlanması problemi ilə üzləşəndə qadınların hara müraciət edilməsi barədə sualına cavabında onların üçdə iki hissəsi hüquq-mühafizə orqanlarını, 18 faizi qohumlarını, 14 faizi bələdiyyə və icra hakimiyyətlərini göstəriblər[4].

### 3.2. Qadınlara qarşı zorakılıq

21. Komitə qadınlara qarşı zorakılıq halları barədə ictimaiyyətin məlumatlandırılması və belə pozuntuların qarşısının alınması və aradan qaldırılması sahəsində iştirakçı-ölkə tərəfindən tədbirlər kompleksinin qəbul edilməsini yüksək qiymətləndirir və nümayəndə heyəti rəhbərinin parlamentin 2009-cu ilin 3-cü rübündə keçiriləcək iclasında məişət zorakılığı ilə mübarizə haqqında qanun layihəsini nəzərdən keçirəcəyinə dair informasiyanı nəzərə alır.Bununla bərabər, Komitə belə bir qanunun qəbulu prosesinin uzun sürməsindən və Azərbaycanda qadın və qızlara qarşı həyata keçirilən zorakılıq aktlarının, o cümlədən məişət zorakılığı və seksual sui-istifadənin digər formalarının geniş yayılmasından əvvəlki kimi narahatlığını bildirir. Komitə susma mədəniyyəti və cəzasızlığın mövcud olduğu bir cəmiyyətdə belə zorakılıq aktlarının bəzən sosial baxımdan şərtlənməsindən və dözülən olmasından narahatlığını ifadə edir. Komitə həmçinin zorakılıq qurbanlarının müraciət edə biləcəyi sığınacaqların və məsləhət və reablitasiya mərkəzlərinin geniş yayılmış şəbəkələrinin azlığından narahatdır. O,Cinayət məcəlləsində göstərilmiş zorlama anlayışının razılığın olmaması əlamətinə yox, güc tətbiq etmək əlamətinə əsaslandığından əvvəlki kimi narahat olduğunu bildirir. Komitə qadınlara qarşı zorakılıq aktlarının həyata keçirilməsinə görə ittiham hökmlərinin çıxarılması cəzalandırma hallarına dair informasiyanın, eləcə də qadınlara qarşı zorakılığın

[4] Mənbə: http://www.mia.az/news/15130.html

müxtəlif formalarının yayılmasına dair statistik məlumatların olmaması ilə bağlı təəssüfünü bildirib.

22. **Komitə iştirakçı-ölkələri məişət zorakılığı ilə mübarizə haqqında qanun layihəsinin qəbulunu tezləşdirməyə və onun tərkibinə ailədə seksual zorakılığa dair müddəaların daxil edilməsini təmin etməyə israrla çağırır.Komitə iştirakçı-ölkələrdən qadınlar və qızlara qarşı zorakılıq, əsasən də məişət zorakılığı ilə mübarizədə səylərini davam etdirməyi xahiş edir. O, iştirakçı-ölkəyə qadınlara qarşı zorakılığın bütün formalarına qarşı kütləvi informasiya vasitələri və maarifləndirici proqramlar vasitəsilə geniş təbliğat kampaniyası aparmağı məsləhət görür. Komitə iştirakçı-ölkəni zorakılıq qurbanı olmuş qadın və qızların hüquq müdafiəsi və yardımı vasitələrinə, eləcə də mühafizə təlimatının verilməsi üçün müraciət etmək imkanını və bütün regionlarda kifayət qədər lazımi sığınacaqların yaradılmasını təmin etməyə çağırır. Komitə bütün zorakılıq qurbanlarına, xüsusilə kənd bölgələrində hüquqi yardım göstərilməsinə dair mərkəzlərin yaradılması yolu ilə hüquqi yardım göstərilməsini davam etdirməyi tövsiyyə edir. O, həmçinin, məhkəmə orqanları və müxtəlif dövlət qurumlarının, əsasən hüquq-mühafizə orqanları əməkdaşları, tibbi idarələrin işçiləri və icma rəhbərləri üçün, onları qadın və qızlara qarşı zorakılığın bütün formalarından xəbərdar etmək və onları zorakılıq qurbanlarına gender mənsubiyyətindən asılı olaraq lazımi yardım göstərə bilmələrini təmin etmək məqsədilə təlim proqramlarının təşkilinə dair tədbirlər keçirməyi xahiş edir. Komitə iştirakçı-ölkəni Cinayət Məcəlləsinə dəyişikliklər etməyə çağırır.O, iştirakçı-ölkədə qadınlara qarşı zorakılığın bütün formalarının, o cümlədən məişət zorakılığının yayılma miqyasının, səbəb və nəticələrinin öyrənilməsi üçün elmi araşdırmalar aparılmasının vacibliyi barədə tövsiyyələrini bir daha təsdiq edir. Bu araşdırmaların nəticəsi hərtərəfli və ünvanlı yardımın göstərilməsi proqramının genişləndirilməsi üçün əsas ola bilər.**

### 3.2.1. Qadınlara qarşı zorakılığa qarşı qanunvericilik

2010-cu ilin 22 iyun tarixində "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Bu Qanun məişət zorakılığı zəminində baş verən zorakılığın qarşısının alınması mexanizmlərinin yaradılması və tənzimlənməsi məqsədini güdür. Qanunun əsas yükü ailə münasibətlərinin qorunması ilə bərabər zorakılıqdan zərər çəkən şəxslərin sosial mühafizəsini təmin etməkdir. Qanun xəbərdaredici vasitələrin və reabilitasiya təsisatlarının formalaşmasına və məişət zorakılığı ilə kompleksli mübarizə üçün vahid mexanizm yaratdı. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunun əsas əhəmiyyəti onun məişət zorakılığının formalarını açıqlamaqdır: fiziki, psixi, cinsi zorakılıq və habelə iqtisadi xarakterli qanunsuz məhdudiyyətlər[5].

"Məişət zorakılığının qarşısının alınması haqqında" qanun yalnız qadınların deyil, digər ailə üzvlərinin, o cümlədən uşaqların fiziki, psixi, cinsi və iq-

[5] Ceyhun Qaracayev. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi. Mənbə: http://femida.az/2012/05/04/az%C9%99rbaycan-respublikasinda-m%C9%99is%C9%99t-zorakiligi-il%C9%99-mubariz%C9%99-n%C9%99z%C9%99riyy%C9%99-tarix-v%C9%99-t%C9%99crub%C9%99/

tisadı xarakterli zorakılıqlardan müdafiə edir. Nəzərə alınmalıdır ki, ölkənin əyalət hissələrində məişət zorakılığı bir ailənin çərçivələrindən kənara çıxa bilər. Yəni, bir ailə tərkibində olmayan, lakin ailə ilə qohumluq əlaqələri olan şəxslər də məişət zorakılığının qurbanları və ya əksinə zorakılıq tətbiq edən şəxs rolunda ola bilər.

Qanuna əsasən, məişət zorakılığı barədə şikayətə 2 növ dövlət orqanı baxır:

- Cinayət təqibini həyata keçirən orqanları - cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada - əgər şikayətdə törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlar varsa,
- Müvafiq icra hakimiyyəti orqanları - əgər şikayətdə cinayət tərkibinin əlamətləri yoxdursa. [6]

**Şikayətdə cinayətin tərkibi olmadıqda müvafiq icra hakimiyyəti orqanının aşağıdakı səlahiyyətləri vardır:**

1. məişət zorakılığı törətmiş şəxsə qanunvericiliklə müəyyən olunmuş məsuliyyət izah edilməklə, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və zərərçəkmiş şəxsə qısamüddətli mühafizə orderi vermək;
2. məişət zorakılığı törətmiş şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciət etmək;
3. şikayətdə inzibati xəta haqqında məlumat olduqda şəxsin inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanına müraciət etmək;
4. zərərçəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət etmək;
5. zərərçəkmiş şəxsi yardım mərkəzində sığınacaqla təmin etmək.[7]

Müvafiq icra hakimiyyəti orqanı şikayət daxil olduğu vaxtdan 24 saat ərzində məişət zorakılığı törətmiş şəxsə zorakılıq hərəkətlərin təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilir və dərhal ona 30 gün müddətinədək qısamüddətli mühafizə orderi verilir.[8]

Qısamüddətli mühafizə orderində məişət zorakılığını törətmiş şəxsə;

1. məişət zorakılığının təkrar törədilməsi,
2. zərərçəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması,
3. zərərçəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi qadağan edilə bilər. [9]

Məişət zorakılığı törətmiş şəxs verilmiş xəbərdarlığa əməl etmədikdə, zərərçəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir.[10] Uzunmüddətli mühafizə orderi məhkəmə tərəfindən 30 gündən 180 gün müddətinə verilir [11] və onun surəti çıxarıldığı gün tərəflərə verilməlidir.[12]

Uzunmüddətli mühafizə orderində məişət zorakılığını törətmiş şəxsə;

[6] "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 5
[7] "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 9
[8] "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 11.1 və 11.2
[9] "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 10.2
[10] "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 12.1
[11] "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 12.2
[12] "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 12.6

1. məişət zorakılığının təkrar törədilməsi,
2. zərərçəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması,
3. zərərçəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi qadağan edilə bilər.
4. onun yetkinlik yaşına çatmamış uşaqları ilə ünsiyyət qaydaları;
5. yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydaları müəyyən edilə bilər;
6. zərərçəkmiş şəxsə tibbi və hüquqi yardımın göstərilməsi ilə bağlı xərclərin zorakılığı törətmiş şəxs tərəfindən ödənilməsi öhdəliyi qoyula bilər;
7. mühafizə orderinin tələblərini icra etməyən şəxsin qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunması izah edilə bilər.[13]

Qanun beynəlxalq təşkilatların rəyləri alınmaqla və uzun müzakirələrdən sonra qəbul olunmuşdur. Qanunda məişət zorakılığının qarşısının alınmasına yönələn mükəmməl mexanizmlər nəzərdə tutulur. Bununla belə, Qanun qəbulundan bir neçə il keçməsinə baxmayaraq onun tətbiqində ciddi problemlər qalmaqdadır. Belə ki, ölkədə məişət zorakılığının qarşısının alınmasına yönələn mexanizm və ənənə yoxdur. Polisin müdaxiləsi yalnız cinayət xarakterli zorakılıq hallarında baş verir. Baxmayaraq ki, qanunda qeyri cinayət xarakterli zorakılıq hallarının qarşısının alınmasına yönələn mexanizmlər də nəzərdə tutulmuşdur. Qanunda əks olunan qısamüddətli və uzunmüddətli mühafizə orderi tətbiq olunmur.

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunun 10-12-ci maddələri qısamüddətli və uzunmüddətli mühafizə orderinin təqdim edilmə şərtlərini nəzərdə tuturlar. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə əlavə tədbirlər haqqında" 2011-ci il 24 noyabr tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə polis orqanları qarşısında zorakılıq qurbanlarının mühafizəsi ilə bağlı vəzifə qoyulub. Hal-hazırda isə inzibati qanunvericiliyi mühafizə orderinin təminatı və tətbiqi ilə bağlı əlavə və dəyişikliklər gözləyir.

Məişət zorakılığı qurbanlarına göstərilən sosial yardımın əsas hissəsi yardım mərkəzlərinin fəaliyyəti ilə bağlıdır. Qanunvericiliklə sosial yardım mərkəzi dövlət və qeyri-dövlət subyektləri tərəfindən yaradıla bilər. Bu cür yardım mərkəzinin yaradılması xüsusi ilə vacibdir. Belə ki, zorakılıq qurbanı olan şəxs zorakılıq göstərən şəxsdən dərhal təcrid olunmalı və xüsusi mühafizə olunan şəraitdə saxlanılmalıdır[14].

***Qanunun tətbiqi mexanizmləri və problemləri***

Qeyri –hökumət təşkilatlarının apardıqları müxtəlif tədqiqatların nəticələrinə əsaslanaraq ölkədə ailə daxilində qadınlara qarşı tətbiq olunan əsas zorakılıq formaları aşağıdakılardır:

- Zorakılığın əlamətlərində fiziki zorakılıq elementləri olmadığından nə cinayət, nə də inzibati xəta halını qeydə almaq mümkün olmur. Burada əsasən qadının izlənilməsi, onun iş yerinə gəlmək, telefonun yoxlanılması və s. bezdirici hərəkətlər iştirak edir;

[13] "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 10.3
[14] Ceyhun Qaracayev. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi. Mənbə: http://femida.az/2012/05/04/az%C9%99rbaycan-respublikasinda-m%C9%99is%C9%99t-zorakiligi-il%C9%99-mubariz%C9%99-n%C9%99z%C9%99riyy%C9%99-tarix-v%C9%99-t%C9%99crub%C9%99/

- Zorakılıq vardır, lakin bu inzibati məsuliyyət tətbiq etməyə imkan verir. Lakin İnzibatı Xətalar Məcəlləsi bu gün üçün belə zorakılığın tam anlayışını vermir və cəza ancaq dolayısı yolla tətbiq edilə bilər;
- Zorakılıq ağır fiziki iztirab və bəzən soyuq silahdan istifadə ilə nəticələnir və sağlamlığa davamlı və uzunmuddətli zərər vurmaqla nəticələnir. Bu zaman cinayət qanunvericiliyi tətbiq edilir. Bu halda adətən ailə dağılır;
- Digər bir hal zorakılıq qurbanı və ya onun qohumları müvafiq orqanlara şikayət verirlər.

Lakin bu zaman qanunun müəyyən etdiyi mexanizmlər-uzunmüddətli və ya qısamüddətli mühafizə orderinin tətbiqi mexanizmi işləmir. Nəticədə polisin müdaxiləsi ailə daxilində münaqişənin daha da dərinləşməsinə gətirib çıxarır.

Qanunun tələbinə baxmayaraq ölkədə məişət zorakılığının qurbanları üçün sığınacaqlar təşkil olunmamışdır. Ölkədə minimal tələblərə cavab verən və QHT-nin nəzdində fəaliyyət göstərən 1 sığınacaq vardır ki, o da paytaxt Bakıda fəaliyyət göstərir. "Təmiz Dünya" qadınlara yardım İctimai Birliyinin nəzdində fəaliyyət göstərən bu sığınacaq artmaqda olan tələbatı ödəmir. Hazırda müvafiq dövlət qurumları sığınacaqların təşkili ilə bağlı müəyyən fəaliyyətlər həyata keçirməkdədir. 2012-ci ilin martında qəbul olunmuş "Sosial Xidmət haqqında" qanun belə sığınacaqların təşkili ilə bağlı fəaliyyətləri genişləndirəcəkdir. Həmin qanun QHT-lərə və digər hüquqi və fiziki şəxslərə dövlətdən sosial xidmət sahəsində sifarişlər almağa imkan verəcəkdir.

Nazirlər Kabineti 25 aperl 2012-ci il tarixli qərarı ilə «Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası»nın və «Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları» təsdiq etmışdir.

Bundan əlavə Nazirlər Kabineti "Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması", "Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması", " «Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma » Qaydalarını təsdiq etmişdir.

Avropa ölkələrində məişət zorakılığına qarşı mübarizə sahəsində effektiv sayıla biləcək bir sıra metod və üsulların Azərbaycanda tətbiqi problematik görünməkdədir. Belə ki, cinayət tərkibi yaratmayan məişət zorakılığı halları ilə mübarizə mexanizmləri zəifdir. Burada inzibati orqanların, xüsusən də polisin müdaxiləsi bir çox hallarda problemi nəinki həll etmir, hətta onu dərinləşdirir və ailənin dağılmasına gətirib çıxarır. Bu xüsusən əyalətlər üçün daha çox xarakterikdir. Ailə işlərinə polis müdaxiləsi biabırçılıq hesab olunur. Belə olan halda qeyri hökumət təşkilatları xüsusi ixtisaslaşmış polis orqanının təsis olunmasını və onun tərkibinin əsasən qadınlardan ibarət olmasını təklif edirlər. İstər qısamüddətli, istər sə də uzunmüddətli mühafizə orderinin tətbiqi, digər inzibati və ya qanunvericilikdə nəzərdə tutulan və məişət zorakılığının qarşısının alınmasına yönələn tədbirlərin həyata keçirilməsinə qadın polislərin cəlb olunması daha effektiv hesab olunur və bu zaman ailədə münaqişənin dərinləşməsi prosesi baş vermir.

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) vəsaiti ilə Counterpart International təşkilatının Qadın İştirakçılığı Proqramı çərçivəsində maliyyələşən "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi və Vətəndaşların Əmək

Hüquqlarının Müdafiəsi liqasından ibarət QHT Koalisiyası tərəfindən həyata keçirilən layihə çərçivəsində Azərbaycanda qadınların polis orqanlarına cəlb olunmasında mövcud olan hüquqi, sosial, iqtisadı və ənənə ilə bağlı olan problemlər tədqiq olunmuşdur. Müəyyən edilmişdir ki, ölkədə qadınların polis orqanlarında xidmət keçmələrinə əngəl yaradan hüquqi məsələlərlə yanaşı, həmçinin çoxsaylı stereotiplər *mö*vcuddur. Bu baxımdan aparılan tədqiqat *"Stereotipləri qıraq! Qadın polislərlə bağlı miflər"* adlandırılmışdır. Ümumiyyətlə Azərbaycan BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair" Konvensiyanı və ona əlavə olunan fakultativ protokolu ratifikasiya etdikdən sonra yalnız hüquq müstəvisində deyil (qanunvericiliyin təkmilləşdirilməsi, yenə qanunların qəbulu, məhkəmə praktikasının təşəkkül tapması və s.) həm də zərərli ənənələrin və stereotiplərin aradan qaldırılması istiqamətində də bir sıra fəaliyyətlər həyata keçirməkdədir. Lakin hökumətin qadınlara qarşı ayrı seçkiliyin bütün formalarının ləğvi prinsipinə dair apardığı səylərə baxmayaraq, bir çox hallarda praktikada hələ də qadınlara qarşı gizli və açıq ayrı-seçkilik halları mövcuddur.

Qadınlara qarşı ayrı seçkiliyin bütün formalarının tam ləğvində müxtəlif maneələrin ortaya çıxa bilməsi labüddür. Belə ki, BMT-nin Qadınlara qarşı ayrı seçkiliyin bütün formalarının ləğv edilməsi Haqqında Konvensiyasının özündə bu cür hallar nəzərə alınmış və belə maneələr xüsusilə qeyd edilmişdir. Konvensiyanın 5-ci maddəsinin a) bəndində deyilir: İştirakçı dövlətlər "xürafatcıl düşüncələrin kökündən yox edilməsinə, cinslərdən birinin natamamlığı və üstünlüyü ideyasına və yaxud kişi və qadınların stereotip roluna əsaslanan adətlərin və digər praktikaların aradan qaldırılmasına nail olmaq məqsədilə kişi və qadınların sosial və mədəni davranış modelini dəyişdirmək" və s. kim tədbirlər həyata keçirirlər[15].

Tədqiqat qadınların daha az təmsil olunduğu fəaliyyət sahəsinə diqqət yetirmiş, polis qurumlarında qadınların iştirakının az olması səbəblərini araşdırmışdır.

Tədqiqat Bakı şəhəri və əsasən Respublikanın qərb regionları: Qazax, Ağstafa, Şəmkir, Tovuz rayonlarında təsadüfi seçmə metodikası əsasında yaşı 18-dən tutmuş 60 və daha artıq olan 300 nəfər qadın və kişi arasında aparılmışdır.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, ümumilikdə ölkənin daxili işlər sistemində çalışanların cəmi 3,5 % -i qadınlardır. Bunlar da əsasən idarəetmə və infrastruktur (qospital, poliklinika polis orqanının aparatı və s.) çalışırlar. Əməliyyat işlərində isə polis qadınların sayı yox dərəcəsindədir.

Tədqiqat zamanı respondentlərə verilən suallardan biri də "qadın ailədə zorakılığa məruz qalarsa polisə müraciət etməlidirmi?" Rəyi soruşulanların 85,4 xeyr cavabını vermişdir.

Cavablardan göründüyü kimi baş verən zorakılıqla bağlı polisə müraciətlərin edilməsi müsbət qarşılanmır. Sualların şəxsi kontekstdə verildiyindən iştirakçılar stereotiplərdən nə qədər asılı olduqlarını gizlədə bilmirlər. Nəticələr bir daha baş vermiş zorakılıq hallarının əksəriyyətinin latent olaraq qalmalarını sübut edir.

[15] Stereotipləri qıraq! Qadın polislərlə bağlı miflər" adlı tədqiqat materalından. "Təmiz Dünya" Qadınlara yardım İB və Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən ABŞ Beynəlxalq İnkişaf Agentliyinin vəsaiti ilə Counterpart İnternational təşkilatının "Qadın İştirakçılığı proqramı" çərçivəsində həyata keçirilmişdir.

Aparılan tədqiqata görə:

**Ailədaxili zorakılıq zamanı qadınların polisə müraciət səbəblərinə dair sorğuda iştirak edənlərin münasibəti aşağıdakı kimi müəyyənləşmişdir:**

| Hansı hallarda polisə müraciət edərdiniz? (sual qadınlara ünvanlanmışdır) | | | |
|---|---|---|---|
| | | Qadın | |
| | Region | şəhər | ümumi |
| zorakılığın istənilən forması ilə rastlaşdıqda | 5,30% | 12,00% | 17% |
| uşaqlarını itirmək təhlükəsi ilə üz-üzə qaldıqda | 12,00% | 22,60% | 35% |
| partnyoru qorxutmaq məqsədilə | 5,30% | 21,30% | 27% |
| küçəyə atılmaq təhlükəsilə rastlaşdıqda | 9% | 20,00% | 29,30% |
| ölümcül xəsarət aldıqda | 12,00% | 25,30% | 37% |
| yuxarıda göstərilən bütün hallarda | 3% | 6,60% | 9,30% |
| | | | |

Göründüyü kimi, polisə müraciət məsələsi ciddi stereotiplərlə bağlıdır. Belə ki, rayon qadınları yalnız onlar üçün ən əziz olan bir şeyin - "uşaqlarını itirmək" və "ölümcül xəsarət" almaq təhlükəsi olduqda polisə müraciət edə biləcəklərini qeyd edirlər. Lakin hətta, onlar üçün ən əziz hesab edilən uşaqları əllərindən alındıqda belə ictimai qınaqdan və kişi polisindən çəkinərək bu fikirdən daşınırlar. Yuxarıda qeyd edilənlərlə bağlı qadınların hərəkətsizliyi bizi qadınlara münasibətdə ailədə və digər yerlərdə zorakılıq halları ilə bağlı müraciətlərin baş vermə ehtimalının olduqca az olması qənaətinə gətirir. Şəhər qadınları isə polisə bəzən "partnyoru qorxutmaq məqsədilə" müraciət edə biləcəyini etiraf etməkdən çəkinmir. Bu halın özündə müəyyən təhlükəli və gizli məqamlar ortaya çıxır. Belə ki, qadınların ərlərini "qorxutmaq" istəyi kişilərə qarşı qısqanclıq hallarından irəli gəlməsi təəssüratı yarada bilər. Bu isə birinin digəri üzərində hakimiyyətinin fərqli formada qurulması və zorakılıq hallarının tətbiqində rolların dəyişməsinə gətirib çıxara bilər. Qeyd edilənləri nəzərə alaraq, baş verən zorakılıq zamanı tərəflərin müraciətlərinin ciddi formada araşdırılması və ədalətli qərarların çıxarılması məqsədi ilə polis işçilərinin xüsusi hazırlığını zəruri edir. Ümumiyyətlə şəhər sakini olan qadınlar müxtəlif məsələlərlə əlaqədar özlərinin və uşaqlarının təhlükəsizliyi, o cümlədən digər məsələlərlə bağlı polisə müraciət etməkdə bölgə qadınlarına nisbətən daha aktivdirlər[16].

Zorakılıq baş verdikdə polisə müraciətlə bağlı problemlər mövcuddur. Tədqiqat çərçivəsində keçirilən sorğularda respondentlərin cavablandırdığı suallardan biri də aşağıdakı olmuşdur.

[16] Stereotipləri qıraq! Qadın polislərlə bağlı miflər" adlı tədqiqat materalından. "Təmiz Dünya" Qadınlara yardım İB və Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən ABŞ Beynəlxalq İnkişaf Agentliyinin vəsaiti ilə Counterpart İnternational təşkilatının "Qadın İştirakçılığı proqramı" çərçivəsində həyata keçirilmişdir.

**Ailədaxili zorakılıq zamanı qadınların polisə müraciətinə mane olan səbəblərə dair sorğuda iştirak edənlərin münasibəti aşağıdakı kimi müəyyənləşmişdir:**

| Ailədə zorakılıq baş verən hallarda hansı səbəbdən polisə müraciət etməzsiniz? | | | |
|---|---|---|---|
| | Qadın | | |
| | Region | şəhər | Ümumi |
| Polisdə əsasən kişilər təmsil olunduğundan qadınların bu addımı qəbul edilmədiyi üçün | 61,30% | 78,60% | 70% |
| Ailənin sirrinin kənara çıxması ictimai qınağa səbəb olduğu üçün | 46,60% | 68,00% | 57% |
| Ailənin dağılmaması üçün | 64% | 65,30% | 64,60% |
| Günahkar daha çox qadınlar hesab olunduğundan | 52,00% | 70,00% | 61% |
| Bütün səbəblərdən | 4% | 14,60% | 9,30% |

Sorğunun bu hissəsində qadınların polisə könülsüz müraciətinin mahiyyəti aydın formada özünü biruzə verir. Qadınlar baş vermiş zorakılıq halları ilə bağlı "polis işçiləri əsasən kişilərdir", "ailələrini (öz aləmlərində) qorumağa çalışırlar" və nəhayət "daha çox günahkar hesab edilirlər" səbəblərindən polisə müraciət etmirlər. Bu cavablar, əslində, öncə qeyd etdiyimiz kimi, hələ də ictimaiyyət arasında polis haqqında olan qeyri-obyektiv yanaşmalarla əlaqədardır. Yuxarıdakı cədvəllərdə qeyd edildiyi kimi, polis haqqında təbliğatda köklü dəyişikliklərə böyük ehtiyac var.

Sorğular göstərir ki, məişət zorakılığının qurbanları polisə və digər hüquq mühafizə orqanlarına istisna hallarda müraciət edirlər:

**Ailədaxili zorakılıq zamanı qadınların polisə müraciət səbəblərinə dair sorğuda iştirak edənlərin münasibəti aşağıdakı kimi müəyyənləşmişdir:**

| Ailədə baş verən zorakılıq zamanı qadının hansı səbəblərdən polisə müraciətinə bəraət qazandırmaq olar? (kişilərə ünvanlanıb) | | | |
|---|---|---|---|
| | Kişi | | |
| | region | şəhər | ümumi |
| ölümcül fiziki zərbələrə məruz qaldığı zaman | 2,60% | 4,00% | 7% |
| uşaqlarını itirmək təhlükəsi ilə üz-üzə qaldıqda | 4,00% | 5,30% | 9% |
| küçəyə atılmaq təhlükəsi ilə rastlaşdıqda | 1% | 2,60% | 4,00% |
| yuxarıda göstərilən bütün hallarda | 0% | 0,00% | 0,00% |

**Ailədaxili zorakılıq zamanı qadınların polisə müraciətinə mane olan səbəblərə dair sorğuda iştirak edənlərin münasibəti aşağıdakı kimi müəyyənləşmişdir:**

| ailədə baş verən zorakılıq zamanı qadın hansı səbəblərdən polisə müraciət etməməlidir? (kişilərə ünvanlanıb) | | | |
|---|---|---|---|
| | Kişi | | |
| | Region | şəhər | Ümumi |
| Qadının polisə müraciəti onun yenidən ailəyə qayıtmasına mane olacağı üçün | 77,30% | 69,30% | 73% |
| Ailənin sirrini kənar şəxslərin bilməməsi üçün | 86,60% | 81,30% | 84% |
| Günahkar daha çox qadın hesab olunduğu üçün | 83% | 52,00% | 67,30% |
| Qadının yad kişinin (polisin) qarşısında həyat yoldaşını alçaltmaması üçün | 12,00% | 53,30% | 71% |
| yuxarıda göstərilən bütün hallarda | 3% | 29,30% | 14,60% |

Kişi respondentlərin əksəriyyəti ailədə zorakılıq baş verdiyi təqdirdə qadının polisə müraciət etmələrinə qarşı çıxmış və bunu əsasən, ailənin sirrinin yayılması kimi böyük qəbahət kimi (84%) və qadının polisə müraciətinin onun yenidən ailəyə qayıtmasına mane olacağı ilə (73%) izah edirlər. Bu isə zorakılığa şərait yaradan ən başlıca amil kimi mövcud stereotiplərin və ənənələrin zəmin yaratmasını sübut edir. Tədqiqat qrupu hesab edir ki, stereotiplər və xurafatların aradan qaldırılması ilə bağlı ciddi tədbirlər həyata keçirilməyincə, polislər arasında qadınların sayı artmayınca zorakılıq halları latent olaraq qalacaq və kişi dominantlığı davamlı olaraq hökm sürəcək.

Aparılan tədqiqat və sorğular da aşkar şəkildə göstərir ki, məişət zorakılığına qarşı mübarizədə yalnız mükəmməl qanunvericilik bazasının yaradılması kifayət deyildir. Stereotiplərlə mübarizə sahəsində həm dövlət, həm də vətəndaş cəmiyyəti digər istiqamətlərdə, o cümlədən maarifləndirmə istiqamətində fəaliyyətləri artırmalıdır.

QHT koalisiyası məişət zorakılığına qarşı mübarizədə effektiv mübarizə üsulları, o cümlədən tərkibi əsasən qadınlardan ibarət olan ixtsaslaşmış polisin yaradılmasına dair müvafiq dövlət qurumlarına təklif və tövsiyyələrini təqdim etmişdir.

### 3.2.2. Məişət zorakılığına qarşı effektiv mübarizə aparmağa mane olan digər səbəblər:

***Dəqiq statistikanın olmaması***

Hazırda məişət zorakılığı halları ilə bağlı ölkədə dəqiq statistika aparılmır. Əslində belə statistikanı aparmaq praktiki baxımdan mümkün deyildir. Yalnız cinayət təqibinə səbəb olan hallar qeydə alınır. Bu isə məişət zorakılığının miqyaslarının, sayının və xarakterinin müəyyən edilməsinə imkan vermir.

"Təmiz Dünya" Qadınlara yardım İctimai Birliyinin hazırladığı "Azərbaycan Respublikasında ailədaxili zorakılıq faktlarının elektron KİV-də monitorinqinin nəticələri" nə dair hesabatda bununla bağlı aşağıdakılar göstərilir:

"2010-cu il ərzində müraciət edilən qəzet və saytların adları: Lent az, Day az, Olaylar İA, Modern az, Yeni Müsavat, Azadlıq, Xalq cəbhəsi, Şərq, Ədalət, Kaspi, Zerkalo, Ayna, Həftə içi, Bizim əsr, Mərkəz, Üç nöqtə, İki sahil.

Cinayət hadisələri ilə bağlı mütəmadi məlumat verən qəzet və saytlar əsasən: Lent az, Day az, Olaylar İA, Modern az, Yeni Müsavat, Zerkalo, Ayna, Həftə içi olmuşdur.

11 sayda elektron qəzet və 4 sayda saytların monitorinqinin nəticələrinə görə müəyyən edilmiş faktlar üzrə göstəricilər aşağıdakı kimidir.

**Cədvəl 1. Ümumi məlumat**

| Cins üzrə | Hadisələrin sayı | Ölənlər | Ölümə qəsd |
|---|---|---|---|
| qadınlar | 173 | 106 | 67 |
| Kişilər | 80 | 39 | 41 |
| uşaqlar | 7 | 5 | 2 |
| **CƏMİ** | 260 | 150 | 110 |

Elektron qəzetlərin monitorinqin bir illik nəticələrinə görə ailədə baş vermiş zorakılıq halları 173 qadının, 80 kişinin, 7 uşağın ölümü ilə nəticələnib. Halbuki bu göstəricilər əvvəlki illərdə, məsələn, 2005-ci il göstəricisinə görə cəmi 17 nəfər qadına ailədə qəsd edilmişdir".

Lakin ölkə üzrə dəqiq statistika yoxdur.

**3.2.3. Məişət zorakılığına qarşı mübarizə üzrə qanunvericiliyin tətbiqi sahəsində vahid dövlət fəaliyyətinin olmaması**

"Məişət zorakılığına qarşı mübarizə haqqında" qanunun və onun tətbiqini təmin etmək məqsədi ilə bir sıra normativ hüquqi aktların qəbul olunmasına baxmayaraq dövlət orqanları tərəfindən zorakılığın qarşısının alınmasına yönələn effektiv və koordinasiya olunmuş fəaliyyətlər effektiv hesab oluna bilməz.

Məişət zorakılığına qarşı mübarizədə yeganə tətbiq olunan tədbir məişət zəminində baş verən cinayət hallarının təqib olunmasıdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və bəzi vətəndaş cəmiyyəti qurumlarının həyata keçirdiyi maarifləndirici və məlumatlandırıcı kampaniyalar istisna olmaqla effektiv profilaktik tədbirlər həyata keçirilmir.

Hüquq-mühafizə orqanları əməkdaşlarının məişət zorakılığına dair maarifləndirilməsi yalnız bir dəfə 20 rayon polis idarəsində Azərbaycan Hüquqşünaslar Konfederasiyası tərəfindən həyata keçirilmişdir.

Qanunun zəif tərəflərindən biri də onun tətbiqi mexanizmlərinin effektiv olmaması ilə bağlıdır. Qanunun qəbulundan keçən bir neçə il ərzində qeyri cinayət xarakterli məişət zorakılığı hallarının qarşısının alınmasına yönələn hər hansı tədbir həyata keçirilməmişdir (maarifləndirici və məlumatlandırıcı tədbirlər istisna olmaqla)

Milli maarifləndirmə tədbirlərinə dair bir neçə müsbət nümunələr göstərilə bilər.

30 noyabr 2012-ci il tarixdə 16 günlük fəallıq kampaniyası çərçivəsində "Qadınlara qarşı zorakılığa "yox" deyək" layihəsinin yekunlarına həsr olunmuş tədbir keçirilib. Tədbir Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK), BMT-nin Əhali Fondu (UNFPA), BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR), BMT-nin İnkişaf Fondu (UNDP) və Rasional İnkişaf Uğrunda Qadınlar Cəmiyyəti ilə birgə təşkilatçılığı ilə baş tutub[17].

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Avropa İttifaqı ilə birgə TAİEX layihəsi çərçivəsində Avropa ekspertlərin iştirakı ilə 28 - 29 noyabr 2012-ci il tarixində "Ailədə uşaqların zorakılığa məruz qalmasının qarşısının alınması" mövzusunda təlim keçirilmişdir. Təlimdə Böyük Britaniyadan, İtaliyadan və Polşadan həmin sahə üzrə ekspertlər və müvafiq qurumlarının, nazirliklərinin nümayəndələri iştirak edirdilər[18].

27 noyabr 2012-ci il tarixdə Badamdar Kempinski oteldə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, ABŞ beynəlxalq İnkişaf agentliyi, Counterpart İnternational Beynəlxalq təşkilatı ilə birgə Qadın Liderliyi mövzusunda tədbir keçirib. Tədbirdə müzakirə olunan məsələlər içərisində məişət zorakılığına qarşı mübarizə məsələləri də olmuşdur.

Qadınlara qarşı zorakılığın qarşısının alınmasına yönələn effektiv fəaliyyətlər sırasına ABŞ Beynəlxalq İnkişaf Agentliyinin maliyyələşdirdiyi Counterpart İnternational beynəlxalq təşkilatının "Qadın İştirakçılığı Proqramı" çərçivəsində vətəndaş cəmiyyəti və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq etməklə həyata keçirilən layihələri göstərmək olar. QİP üzrə partnyor təşkilatlar olan "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi və Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən həyata keçirilən "Qadınlara münasibətdə ayrı-seçkiliyin ləğvində məlumatlandırma, maarifləndirmə və müdafiə mexanizmlərindən istifadə" layihəsi çərçivəsində məişət zorakılığı əleyhinə sosial çarx istehsal olunmuş və uzun müddət telekanallarda, o cümlədən İctimai televiziyada nümayiş etdirilmişdir.

Həmin layihə çərçivəsində maarifləndirici nəşrlər hazırlanmış, internat məktəblərində seminarlar təşkil edilmişdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə ölkənin cənubunda yerləşən Biləsuvar rayonunda qadın liderlər üçün məişət zorakılığı və erkən nigahlar mövzusunda seminar təşkil olunmuşdur.

"Təmiz Dünya" Qadınlara Yardım ictimai Birliyi ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi ilə, 2011-ci ildən başlayaraq "Məişət Zorakılığınımn qarşısının alınması haqqında Qanuna dəstək proqramı çərçivəsində "Qaynar Xətt" xidmətini təşkil etmişdir.

2011 –ci ildə Qaynar xəttə dail olan zənglərin statistikası 970, 2012 ci ildə daxil olan zənglərin statistikası 3000 yaxın olmuşdur.

### 3.2.4. Məişət zorakılığının qarşısının alınması üçün cəza və sanksiyalarla bağlı qanunvericiliyin vəziyyəti

"Məişət zorakılığına qarşı mübarizə haqqında" qanunun qəbulu bir sıra qanunvericilik aktlarına əlavə və dəyişikliklərin həyata keçirilməsini zəruri etmişdir. Bu

[17] Mənbə: http://scfwca.gov.az/news/a-447.html
[18] Mənbə: http://scfwca.gov.az/news/a-444.html

baxımdan Cinayət və İnzibati Xətalar Məcəllələrinə müvafiq əlavə və dəyişikliklər edilməsi nəzərdə tutulurdu.

Xüsusən Məişət zorakılığına qarşı mübarizə haqqında qanunun tələblərindən irəli gələrək qısamüddətli və uzunmüddətli mühafizə orderinin tətbiqi inzibati xətalar məcəlləsində bir sıra yeni məsuliyyət növlərinin müəyyən edilməsini zəruri etmişdir.

Cinayət Məcəlləsində Məişət zorakılığı ilə bağlı birbaşa cəza nəzərdə tutulmasa da, məcəllədə

Qəsdən sağlamlığa az ağır zərər vurma (127-ci maddə), Qəsdən sağlamlığa yüngül zərər vurma (128), Əzab vermə (133) və s. maddələr nəzərdə tutulmuşdur ki,bu maddələr həmçinin məişət zorakılığı hallarında müvafiq olaraq tətbiq olunur.

Bununla belə qanunun qəbulu İnzibati Xətalar Məcəlləsində müvafiq sanksiyaların nəzərdə tutulmasını tələb edir. Cinayət əməli hesab olunmayan zorakılıqların qarşısının alınması üçün İnzibati Xətalar Məcəlləsində bir sıra müddəalar nəzərdə tutulur.

İnzibati Xətalar Məcəlləsinin 38-1 maddəsi döymə, 38-2 maddəsi isə "Məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması" adlanır.

Bu maddələrə əsasən törədilən əməl cinayət məsuliyyətinə səbəb olmursa müxtəlif pul cərimələri tətbiq olunur.

Lakin qanunda nəzərdə tutulan qısamüddətli və uzunmüddətli mühafizə orderinin tətbiqidən sonra belə məhdudiyyətin pozulmasına dair qərarı pozan şəxslərə dair konkret maddələr 2013-cü ilin əvvəlinə qədər Məcəlləyə daxil edilməmişdir.

Məişət zorakılığına qarşı effektiv mübarizənin tətbiq olunmamasının digər mənfi nəticələrindən biri də ailələrin dağılmasıdır. Ölkə məhkəmələrində nigahın pozulması ilə bağlı baxılan işlərin əksəriyyətində nigahın pozulmasını tələb edən qadınlar, buna səbəb kimi onlara qarşı müxtəlif zorakılıqların olmasını göstərirlər.

**İnsan Hüquqları üzrə hüquqşünaslar Komitəsinin 2012-ci ildə "qadın hüquqlarının məhkəmələrdə monitorinqi"** layihəsi çərçivəsində hazırlanmış hesabatda nigahın pozulma səbəblərinin əsasən aşağıdakılardan ibarət olduğu göstərilir.

"Nigahın pozulmasının əsas səbəbləri kimi qadının ailədaxili zorakılığa məruz qalması, ailəyə yaxın qohumlar tərəfindən edilən müdaxilələr, xəyanət, ərin zərərli vərdişlərə malik olması, fiziki problemlər (uşaqların olmaması), tərəflərin xasiyyətlərinin uyğunsuzluğu və s. olmuşdur.

***Ailədaxili zorakılıq*** –monitorinqlərlə müəyyən edilmişdir ki, boşanmaların böyük hissəsində ailədaxili zorakılıq halları əsas səbəblərdən biridir. Müşahidələr ğöstərib ki, cox hallarda qadınlar boşanmadan sonra onlara olan ictimai münasibət, bəzən isə yaxın qohumları tərəfindən qəbul edilməməsi təhlükəsi qarşılığında onlar ailəni qoruyub saxlamaq xatirinə pis ərləri tərəfindən edilən zorakılıqlara uzun müddət dözməli olurlar.

Müəyyən edilib ki, yaxın qohumları ilə birgə yaşayan gənc ailələrdə ailə daxili zorakılıq halları daha çox olub.

Monitorinqi aparılan 153 məhkəmə prosesinin yarısından coxunda (təxminən 53%) nigahın pozulmasının əsas səbəbi kimi ailə daxili zorakılıq qeyd edilib.

Araşdırmalarla müəyyən olunub ki, ailə daxili zorakılıq hallarının baş verməsinə rəvac verən amillər arasında yaxın qohumların ailələrə (əsasən gənc ailəyə) müdaxiləsi, ərin işləməməsi, ərin zərərli vərdişlərə (alkoqolizm və ya narkomaniya) malik olması və s. olmuşdur.

***Kənar müdaxilələr*** - ən çox ərin anası və bacısı tərəfindən edilən müdaxilələr nəzərdə tutulur. Bu halda müşahidə edilən boşanma işlərində aparılan araşdırmadan məlum olub ki, tərəflərin özləri arasında heç bir problem yoxdur və hətta onların boşanmağa marağı da yoxdur. Müşahidələr göstərib ki, əksər hallarda kənar müdaxilələrin ailələrin dağılmasına təsir gücü əsasən işsizlik, maddi asılılıq və şəxsi iradə zəifliyindən doğub. Belə ki, yenicə ailə qurmuş ailələr özləri ailənin maddi tələbatlarını ödəməyə çətinlik çəkdiklərinə görə valideynlərindən dəstək almalı olur və bu hal da axırıncıları söz sahibi edir.

Ərin zərərli vərdişlərə malik olması -ər narkotik vasitə və ya spirtli içki qəbul edərək evə gec gəlir və belə maddələrin təsiri altında öz arvadı və uşaqları ilə normal davranmır. Bundan başqa belə ərlər adətən işləmir, ailənin maddi tələbatını ödəyə bilmir və nəticədə tərəflər arasında narazılıqlar yaranır.

Müşahidə edilən boşanmalarda səbəb kimi ərin zərərli vərdişlərinin rolu təxminən 12% olmuşdur.

***Sonsuzluq (uşaqların olmaması)*** – tərəflərdən birinin sonsuzluqdan əziyyət çəkməsi. Bu halın boşanmağa gətirib çıxarmasına əsasən kənar müdaxilələr səbəb olur. Müşahidə edilən boşanmalarda səbəb kimi sonsuzluğun rolu təxminən 4% olmuşdur.

***Xarakter uyğunsuzluğu*** -bu ifadə tərəflərin adətən ifadə etməyə utandıqları, demək istəmədikləri və yaxud nəyi isə pərdələmək üçün istifadə etdikləri şablon fikirdir. Bəzən isə həqiqətən də tərəflər xasiyyət uyğunsuzluğu yaşayırlar. Müşahidə edilən boşanmalarda səbəb kimi xarakter uyğunsuzluğunun rolu təxminən 24% olmuşdur.

***Xəyanət*** -Müşahidə edilən boşanmalarda səbəb kimi ərin xəyanətinin rolu 3% olmuşdur.

İşsizlik - Müşahidə edilən boşanmalarda səbəb kimi işsizliyin rolu 4% olmuşdur.[19]

Rəsmi boşanmalarda məhkəmə qərarına əsasən qadının ərinin evində yaşamaq hüququnun tanınmasında sonra qadının ər evində yaşadığı dövrdə təkrar zorakılığa məruz qalması halları ( tədqiqi olunmamış sahə)

### 3.3. İnsan alveri

23. Komitə iştirakçi-dövlət tərəfindən insan alveri ilə mübarizə istiqamətində geniş tədbirlərin görülməsini, xüsusilə də 2008-ci ildə bütün hüquq-mühafizə orqanları əməkdaşlarının üzərinə insan alverilə bağlı halları insan alverilə mübarizə bölməsinə yönəltmək öhdəliyi qoyan sərəncamın verilməsini alqışlayaraq, eyni zamanda belə halların bundan sonra da yayılmasından, eləcə də xüsusilə qonşu ölkə ilə münaqişə şəraitində insan alverinin əsas səbəblərinin aradan qaldırılmasına dair kifayət qədər tədbirlərin görülməməsindən narahatlığını bildirir. Bundan əlavə, Komitə belə alverin qurbanları üçün sığınacaqların yoxluğundan, həmçinin belə qadınların məruz qaldığı rüsvayçılıq damğasının onların cəmiyyətdə reinteqrasiyasına mane olduğundan narahatdır.

---

[19] İnsan hüquqları üzrə hüquqşünaslar komitəsi: “Qadın hüquqlarının məhkəmələrdə monitorinqi ” layihəsi üzrə yekun hesabatı: mənbə: http://www.legalforum.az/?cat=reports&id=402

24. **Komitə iştirakçı-dövləti insan alveri ilə mübarizə sahəsində qanunvericiliyin tam həcmdə tətbiqini və insan alveri ilə mübarizə sahəsində fəaliyyət planı və digər tədbirləri mütəmadi nəzarət və onların təsir gücünün qiymətləndirilməsi ilə həyata keçirilməsini təmin etmək istiqamətində səylərini davam etdirməyə çağırır. Komitə iştirakçı-dövləti insan alver ilə məşğul olanları sistematik əsasla təhqiq etməyə, cinayət məsuliyyətinə cəlb etməyə və cəzalandırmağa israrla çağırır. Bundan başqa, o, iştirakçı-dövlətə insan alveri qurbanlarının sosial inteqrasiyası və reablitasiyasının təminatı, o cümlədən bunun əlavə sığınacaqlar yaradılması hesabına həyata keçirilməsi sahəsində səylərini davam etdirməyi məsləhət görür. Komitə əvvəlki tövsiyyələri istiqamətində iştirakçı-dövlətləri insan alverinin əsas səbəblərini aradan qaldırmaq, bununla da potensial qurbanların zəifliyinin və onların alverçilər tərəfindən istismarının qarşısını almaq üçün tədbirlər görməyə çağırır.**

**Fahişəliyin istismarı**

25. Komitə qadın fahişəliyinin istismarı hallarının yayılma miqyası, o cümlədən fahişəliyin yayılmasının sosial-iqtisadi səbəblərinin aradan qaldırılmasına dair səylər, fahişəliyi atmaq istəyən qadınlara yardım göstərilməsi tədbirləri barədə məlumatların məhdudluğundan təəssüflənir.

26. **Komitə iştirakçı-dövləti qadın fahişəliyinin istismarı probleminin öyrənilməsi üçün elmi araşdırmalar aparılmasını təşkil etməyə israrla çağırır. Bu araşdırmaların nəticəsi hərtərəfli və ünvanlı yardımın göstərilməsi proqramının genişləndirilməsi üçün əsas ola bilər. O, iştirakçı-dövləti qadın və qızları fahişəliyə vadar edən səbəbləri aradan qaldırmağa yönəlmiş tədbirlərin effektivliyini yüksəltməyi, fahişəliklə məşğul olan qadın və qızların cəmiyyətdə reabilitasiya və reinteqrasiyasına, fahişəliyi atmaq istəyən qadınlara yardım göstərilməsinə dair mərkəzlər yaratmağı təmənna edir.**

Azərbaycan Respublikası BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasına və onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokoluna (Palermo Protokolu) qoşulduqdan sonra 28 iyun 2005-ci il tarixində "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və beləliklə də 30 sentyabr 2005-ci il tarixində insan alveri cinayət əməli Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cinayət növü kimi təsbit edilərək 144-1-ci maddəsində öz əksini tapmışdır. Cinayət Məcəlləsinin 144-2 maddəsi də məcburi əməyə görə cinayət təqibini nəzərdə tutur.

### 3.3.1. İnsan Alverinə qarşı mübarizə sahəsində qanunvericiliyin vəziyyəti

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.1-ci maddəsində verilmiş anlayışa əsasən, insan alveri, zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcbur etmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla in-

sanların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi kimi təsbit edilmişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-1-ci maddəsində isə insan alveri şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi üçün və ya eyni məqsədlə digər şəxslərə verilməsi üçün cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi kimi təsbit edilmişdir.

Aparılan təhlillər nəticəsində bu anlayışlar arasında aşağıdakı uyğunsuzluqlar aşkar edilmişdir:

Qanunda insan alverinə verilən anlayışda sadalanan əməllərin göstərilən üsullarla və istismar məqsədilə törədilməsinin insan alveri əməli kimi tanınmasına baxmayaraq Məcəllədə verilmiş anlayışda həmin əməllərin törədilməsi məqsədi qeyd edilsə də onun törədilməsi üsulları öz əksini tapmamış və beləliklə hüquqi əhəmiyyət kəsb etməməsi ilə nəticələnmişdir. Halbuki, insan alveri cinayət əməlinin törədilməsində cinayət tərkibi əlamətləri üzrə qiymətləndirilməsi zəruri olan üç sual və ya üç element vardır ki, bunların da biri məhz insan alverinin törədilməsi üsulları ilə bağlıdır. Belə ki, insan alveri cinayət hadisəsi qeyd edilən üsullardan ən azı biri istifadə edilməklə, istismar məqsədilə və sadalan əməllərin biri və ya bir neçəsi həyata keçirilməklə baş verə bilər. Buradan da aydın olur ki, insan alveri cinayət hadisəsi üzrə cavabını tapması zəruri olan üç sual:necə? (hansı üsulla?), niyə? (hansı məqsədlə?), nə? (hansı əməl?) suallarıdır.

İnsan alveri qurbanı gələcəkdə istismar edilməsi üçün potensial qurban olarkən onun istismara cəlb edilməsi üsulları mütləq formada insan alverçisi tərəfindən müəyyən olunaraq yerinə yetirilmiş olur. Çünki heç bir şəxs öz azadlığının məhdudlaşdırılaraq istismar edilməsinə və bir növ "sahibi" olduğu insan alverçisinin "mülkiyyət"inə çevrilməsinə heç bir halda razı ola bilməz. Buna görə də insan alveri qurbanının zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcbur etmə vasitələrilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla göstərilən məqsəd üçün ən azından cəlb edilməsi insan alveri əməli üzrə iştirakçı tərəfindən həyata keçirilmiş olur. Bu günədək ifşa edilmiş insan alveri əməlləri üzrə təhlil göstərir ki, qurbanlar insan alveri əməli üzrə iştirakçı tərəfindən daha çox aldadılmaları, onların etibarlarından sui-istifadə edilmələri nəticəsində istismara məruz qalırlar.

Qanunda verilən anlayışda insan alveri əməllərinin dəqiq dairəsi müəyyən edilmiş və həmin anlayışda Məcəllədə göstərildiyi kimi şəxsin alqı-satqısı və ya sahibliklə əlaqədar əqdlərinin bağlanması kimi əməllər öz əksini tapmamışdır. Bu da öz növbəsində şəxsin alqı-satqısı əməlinin Qanunda göstərilən üsullar və istismar məqsədi olmadan törədildiyi təqdirdə Cinayət Məcəlləsində öz əksini tapdığı üçün insan alveri cinayəti kimi tövsif edilməsinə gətirib çıxarır.

Buna misal olaraq ananın öz övladını müəyyən güzəşt, mənfəət və s. müqabilində digər şəxsə heç bir istismar məqsədi olmadan verməsini göstərmək olar. Məcəllədə insan alverinə verilən anlayışa görə bu əməl insan alveri əməli kimi tövsif edilməlidir. Əslində isə insan alveri cinayət əməli bilavasitə şəxsin azadlığı əleyhinə olmaqla onun istismar edilməsi ilə əlaqədardır. O cümlədən uşağın qərar qəbul etmə

prosesində iştirakının mümkünsüzlüyü, onun insan alveri qurbanına çevrilməsinə əsas verir.

Qeyd edilən misalda hər hansı insan alveri əməlinin baş verməsini vurğulamaq bir xeyli çətindir. Çünki göstərilən əməlin törədilməsi heç bir halda şəxsin azadlığını pozmur və ya onun istismar edilməsi məqsədilə törədilmir. Təcrübədə bu kimi hadisələrə rast gəlinməsinə baxmayaraq heç bir halda həmin əməllərin istismar məqsədilə törədilməsi öz təsdiqini tapmamışdır. Əksər hallarda uşaq bir şəxsdən digər şəxsə himayəyə və ya övladlığa verilərək bir növ təhvil verən tərəfi valideyn hüquqlarından azad etmiş olur.

Şəxsin alqı-satqısının və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması kimi əməllərin insan alveri anlayışına əlavə olunmasına zərurətin olmadığını isbatlayan bir çox xüsusatlar var ki, onlardan əsası göstərilən əməllərin insan alveri əməli daxilində istismar məqsədilə törədildiyi halda ehtiva olunmasıdır. Hər bir halda məlumdur ki, bu növ cinayətlərin törədilməsində iştirakçı olan hər bir şəxsin bu və ya digər formada niyyəti olur. Bu niyyətləri tamah, intiqam, güzəşt və ya mənfəət əldə etmək və s. kimi göstərmək olar. Təqsirkar tərəf hər hansı niyyətlə şəxsi istismar məqsədilə digər tərəfə verdiyi və digər tərəf şəxsi eyni qaydada qəbul etdiyi təqdirdə həmin şəxsin alqı-satqısı timsalında əməl baş vermiş olur. Həmçinin göstərilən bu ictimai təhlükəli əməl əqd bağlanması ilə sistemləşirsə şəxsə sahibliklə əlaqədar əqdin bağlanması əməli də həyata keçirilir.

Qurbanlar pulsuz hüquqi yardım almaq hüququna malikdirlər. Qurbanlar pulsuz hüquqi yardım və bu yardımı göstərən təşkilatlar barədə xüsusi polis qurumu və qeyri-hökumət təşkilatlarından məlumat alırlar.[20]Qurbanlara pulsuz tibbi yardımın göstərilməsi Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təşkil edilir. Qeyd etmək lazımdır ki, qurbanların hər hansı tibbi müayinəsi qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, yalnız onların razılığı əsasında həyata keçirilir. Tibbi yardım göstərilərkən qurbanların zəruri tibbi ehtiyacları tam ödənilməli, hər biri ilə nəzakətlə davranılmalıdır.[21]Qurbanların psixoloji yardıma ehtiyacları təmin edilir.[22]

İnsan alveri qurbanlarının peşə vərdişlərinin bərpasına yönəlmiş peşə reablitasiyasının həyata keçirilməsi, onların peşə hazırlığının, yenidən hazırlığının və məşğulluğunun təmin edilməsi, onlara təhsillərinin davam etdirilməsi ilə bağlı köməklik göstərilməsi insan alveri qurbanlarının sosial reablitasiyasının əsas istiqamətləridir.[23]

**“İnsan alverinə qarşı fəaliyyət üzrə” Avropa Şurasının Konvensiyanın 13–cü maddəsinə** əsasən, əgər hər hansı bir şəxsin həqiqətən də qurban olduğunu söyləməyə əsas varsa, hər Tərəf öz daxili qanunları ilə onun özünə gəlməsi və olanlar barədə düşünməsi üçün 30 gün vaxt verməlidir. Bu dövr insanın özünə gəlməsi və onu oğurlayanların təsiri altından çıxaraq şüurlu surətdə səlahiyyətli orqanlarla əməkdaşlıq etmək qərarına gəlməsi üçün kifayətdir. Bu dövr ərzində ona qarşı zorla ölkədən qovulma tədbiri həyata keçirmək mümkün deyil. Bu şərt səlahiyyətli dövlət orqanlarının müvafiq prosedurlarda, xüsusilə də qanun pozuntularının tədqiq edilməsi zamanı həyata keçirdiyi fəaliyyətə aid

[20] İnsan alverı qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları, bənd 3.1
[21] İnsan alverı qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları, bənd 3.3
[22] İnsan alverı qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları, bənd 3.4
[23] İnsan alverı qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları, bəndlər 6.4-6.6

deyil. Bu dövr ərzində Tərəflər aidiyyatı olan şəxslərin onların ərazisində qalmalarına nəzarət etməlidirlər.

İnsan Alverinə qarşı Mübarizə haqqında Qanunun əvvəlki redaksiyasında insan alveri qurbanlarına düşünmə üçün vaxtın verilməsi nəzərdə tutulmamışdır. Milli Məclis 19 aprel 2013-cü il tarixində "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər etmiş və indiki redaksiyadə bərpa və fikirləşmə ilə bağlı müddəa nəzərdə tutulur. Bunun üçün qanunda 30 gün müddət təyin edilir.

Azərbaycan Respublikasında insan alveri qurbanlarına düşünmə və özünə gəlmə üçün vaxt verilməsi nəzərdə tutulmasa da, Konvensiyada və digər beynəlxalq sənədlərdə nəzərdə tutulmuş insan alverı qurbanlarının sosial reablitasiya və reinteqrasiya dövründə ölkədən çıxarılmaması öz əksini tapmışdır. Lakin bununla bağlı qanunna əlavə və dəyişikliklərlə bağlı təkliflər paketi Milli Məclisə təqdim olunmuşdur.

Belə ki, Azərbaycan Respublikasının "İnsan alverinə qarşı mübarizə haqqında" qanuna əsasən, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs insan alverindən zərərçəkmiş şəxs hesab olunduqda, onun barəsində 1 il müddətində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilmir. [24]

### 3.3.2. İnsan alverinə qarşı mübarizə ilə bağlı yeni normativ-hüquqi aktlar

Milli Koordinatorun ölkə parlamentinə 2012-ci il üzrə insan alverinə qarşı mübarizəyə dair illik hesabatında göstərilir ki, "Milli Fəaliyyət Planına uyğun olaraq, hesabat ilində, Cinayət Məcəlləsinə hüquqi şəxslərin məsuliyyətini, uşaq pornoqrafiyasının dövriyyəsini cinayət tərkibi kimi müəyyən edən normalar əlavə edilmiş, habelə insan alverinin və məcburi əməyin qurbanları da daxil olmaqla çətin həyat şəraitində yaşayan şəxslərə dövlət qayğısının hüquqi, iqtisadi və təşkilati əsaslarını tənzimləyən "Sosial xidmət haqqında" Qanun qəbul olunmuşdur. Nazirlər Kabineti tərəfindən - insan orqan və toxumalarının transplantasiyası qaydaları və şərtləri, bu əməliyyatların həyata keçirildiyi ixtisaslaşdırılmış tibb müəssisələrinin siyahısı, transplantasiya üçün insan orqan və toxumalarının götürülməsi, hazırlanması və saxlanması qaydaları təsdiqlənmişdir"[25].

### 3.3.3. İnsan alverinə qarşı mübarizə tədbirləri

İnsan alverinə qarşı mübarizə tədbirləri əsasən cinayətin profilaktikası, cinayət təqibi və maarifləndirmə tədbirlərindən ibarətdir. Dövlət tərəfindən yaradılmış ixtisaslaşmış polis qurumu İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi çərçivəsində insan alverinə qarşı kompleks mübarizə tədbirləri həyata keçirilir. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator hər il ölkə parlamentinə-Milli Məclisə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair" hesabat təqdim edir. Milli Koordinatorun 2012-ci il üçün hesabatında göstərilir ki, "2012-ci

[24] İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu, maddə 20.1
[25] İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinator, daxili işlər nazirinin müavini Vilayət Eyvazovun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair -٢٠١٢ci il üzrə hesabatı

ilin 10 ayında həyata keçirilmiş əməliyyat-profilaktik tədbirlərlə 85 insan alveri faktı aşkar edilmiş, 2 mütəşəkkil dəstə və 6 cinayətkar qrup zərərsizləşdirilmişdir. Bu növ hüquqa zidd əməllərə görə 20 nəfər tutulmuşdur ki, onlardan da 10-u məhkəmələr tərəfindən 5 ildən 10 ilədək müddətə azadlıqdan məhrum olunmuşdur. Beynəlxalq axtarış elan edilmiş təqsirləndirilən şəxslərdən 3-nün yeri İnterpol xətti ilə müəyyən olunaraq istintaq orqanlarına təhvil verilmiş və hazırda 22 nəfərin axtarışı davam etdirilir. Müəyyən edilmiş 53 qurbandan 19-u Türkiyəyə, 12-si İrana, 2-i Birləşmiş Ərəb Əmirliklərinə, 14-ü Rusiya Federasiyasına aparılmış, 6-sı ölkə daxilində istismara cəlb olunmuşdur. Sığınacağa yerləşdirilmiş 43 qurbanın hər birinə zəruri yardımlar göstərilmişdir"[26]. Cinayətlərdən zərər çəkmiş 35 nəfərə birdəfəlik, 18-nə isə Kömək Fondundan müvafiq müavinətlər verilmişdir. İbtidai istintaq və məhkəmə prosesləri dövründə bütün qurbanlar müdafiəçilər ilə təmin olunmuşdur. İnsan alveri cinayətlərinin profilaktikası çərçivəsində ictimai mənəviyyat əleyhinə olan 115 cinayət aşkarlanaraq 85 nəfər məsuliyyətə cəlb edilmişdir. Bu hüquqpozmalarla bağlı, barəsində inzibati tənbeh tədbiri görülmüş 450-dək qadının hər biri müvafiq indikatorlar əsasında sorğulara cəlb edilmiş, lakin onların insan alverinin qurbanı olması təsdiqlənməmişdir[27].

Qeyd olunmalıdır ki, insan alverinin formalarından biri olan seksual istismarın qarşısının alınması istiqamətində nisbətən səmərəli fəaliyyət fonunda məcburi əməyə cəlb etmə ilə bağlı faktların müəyyən edilməsi, məcburi əməyə cəlb edən işəgötürənlərlə mübarizə sahəsində fəaliyyətlər o qədər də uğurlu deyildir. Milli koordinatorun 2012-ci il üçün hesabatında məcburi əməyə cəlb etmə halları ilə bağlı göstərilir: "İnsanların məcburi əməyə cəlb edilməsi ilə bağlı 2 cinayət faktı qeydə alınmışdır. Məcburi əmək hallarının müəyyən edilməsi məqsədilə, Dövlət Əmək Müfəttişliyi Xidməti, Azərbaycan Sahibkarlar Konfederasiyası və qeyri-hökumət təşkilatları ilə birgə müxtəlif tikinti şirkətlərində, sənaye müəssisələrində və daş karxanalarında monitorinqlər davam etdirilmişdir. Dövlət Əmək Müfəttişliyi Xidməti ilə birgə keçirilən 5.022 yoxlama nəticəsində, işçilərə gecikdirilmiş əmək haqları üzrə 305.880 manat, dəymiş zərərə görə 27.722 manat, habelə 22.155 manat məbləğində sosial müavinət və kompensasiyalar ödədilmişdir. Müxtəlif inşaat sahələrində çalışan 10.845 işçi ilə əmək müqaviləsinin bağlanması təmin edilmişdir. Dövlət Miqrasiya Xidmətinin 484 obyektdə apardığı yoxlamalarla iki mindən çox əcnəbinin və vətəndaşlığı olmayan şəxsin işə cəlb edilməsi qaydalarını pozmuş 235 hüquqi və fiziki şəxs barəsində müvafiq tədbirlər görülmüşdür"[28].

Lakin bu göstərilən pozuntular inzibati xətalar kimi qeydə alınmışdır. Bu hallarla bağlı cinayət təqibi həyata keçirilməmişdir. Baxmayaraq ki, bir çox hallarda əcnəbi fəhlələrin paspotları əllərindən alınmış və onlara nisbi hərəkət məhdudiyyətləri müəyyən edilmişdir.

[26] İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinator, daxili işlər nazirinin müavini Vilayət Eyvazovun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2012-ci il üzrə hesabatı
[27] İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinator, daxili işlər nazirinin müavini Vilayət Eyvazovun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2012-ci il üzrə hesabatı
[28] İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinator, daxili işlər nazirinin müavini Vilayət Eyvazovun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2012-ci il üzrə hesabatı

### 3.3.4. İnsan Alveri Qurbanlarına yardımlar

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09.11.2005-ci il tarixli 203 saylı qərarına** əsasən Bakı şəhərində insan alveri qurbanlarının müvəqqəti yaşaması üçün xüsusi müəssisə - sığınacaq təsis edilmişdir. Bu məqsəd üçün Bakı şəhərində 3 mərtəbəli bina ayrılmışdır. Burada 50 çarpayı yerləşdirilmişdir. Bina tam təmirdən çıxmış və beynəlxalq standartlara uyğun müasir avadanlıqlarla təchiz edilmişdir. Sığınacaqda, mətbəx və yemək otağı, 22 yataq otağı, hər mərtəbədə sanitar qovşaq və duş otaqları, sığınacağın işçiləri üçün otaqlar, anbar, camaşırxana, psixoloji yardım üçün otaq, müsahibə otağı, görüş otağı (ailə və yaxınları ilə), idman zalı, uşaqlar üçün dərs otağı, uşaqlar üçün oyun otağı, tele-video aparatura ilə təchiz edilmiş dincəlmək üçün xollar insan alveri qurbanlarının istifadəsindədir. Sığınacağın eyni zamanda 50 nəfəri yerləşdirmək imkanı vardır[29].

Sığınacaq tərəfindən insan alveri qurbanlarına aşağıdakı xidmətlər göstərilir:

**Mütəxəssisin konsultasiyası.**

Sığınacaqda insan alveri qurbanlarının reabilitasiyası üçün təqdim olunan xidmətlərdən biri mütəxəssis konsultasiyasıdır. Konsultasiyalar fərdi və ya qrup şəklində ola bilər.

Qrup konsultasiyaların məqsədi insan alveri qurbanlarına şəxsiyyət səriştələrinin və öz hisslərini sərbəst ifadə etmək üçün təhlükəsiz və əlverişli şəraitin yaradılmasından ibarətdir. Belə konsultasiyalar zamanı insan alveri qurbanları başqa qurbanların hadisələri ilə tanış olurlar, artıq reabilitasiya keçmiş qurbanların öz üzərində işləmələri ilə tanış olurlar v.s. Bu cür konsultasiyalarda insan alveri qurbanların iştirakı yalnız onların könüllü razılığı əsasında həyata keçirilir. Konsultasiyanın mövzuları ailə münasibətləri, şəxsi ləyaqət hissi, depressiya, narahatlıq, stressin azaldılması, qidalanma, gigiyena v.s.

**Tibbi yardım.**

İnsan alveri qurbanının fiziki və ruhi rifahı, onun bərpası üçün əsas amildir. Sığınacaqda hər bir insan alveri qurbanı üçün onların könüllü razılığı əsasında tibbi yardım göstərilir. Tibbi yardım ambulator və ya göndərişlə ola bilər. Hər bir halda tibbi yardım göstərən həkimlə məxfilik müqaviləsi bağlanır. Tibbi xidmətlər insan alveri qurbanına onun sığınacaqda yaşadığı ilk gündən ona təklif olunur. Qurbana, sığınacaqda göstərilən tibbi xidmət, tibbi müayinə və müalicə, müalicənin aparılması haqqında məlumat verilir, həmçinin müayinədən əvvəl və sonrakı vəziyyət, xəstəliklərə dair məsləhətlər verilir. Bütün məlumatlar insan alverinin başa düşdüyü dildə ona təqdim olunur.

Sığınacaq dövründə insan alveri qurbanı ilkin tibbi müayinədən keçir. Analizlər verirlər (qanın və sidiyin ümumi analizi, HİV, viruslar, B və C hepatitin analizi, v.s.) və diaqnostik prosedurlardan (qarın nahiyəsinin ultrasəs müayinəsi USM v.s) keçirlər, həkim ginekoloq tərəfindən müayinə olunurlar. İnsan alveri qurbanında hər hansı xəstəlik tapıldıqda onlara müalicə kursları təyin edilir. İnsan alveri qurbanlarında olan müxtəlif xəstəliklərin müayinəsi və müalicəsi üçün sığınacaq tərəfindən ixtisaslaşdırılmış tibbi müəssisələrə göndərişlər verilir. Sığınacaqda göstərilən bütün xidmətlər insan alveri qurbanlarının könüllü razılıqları əsasında aparılır.

[29] "Təmiz Dünya" Qadınlara yardım ictimai birliyi.İnsan alveri qurbanlarının reabilitasiya və reinteqrasiya sahəsində milli tədbirlərin qanunvericilik və praktiki quruluşunun təhlili. Bakı şəhəri 2010-cu il.

**Psixoloji yardım.**

İnsan alveri qurbanlarının reabilitasiyası üçün onlara sığınacaqda psixoloji konsultasiyalar və psixoloji yardım göstərilir. Psixoloji yardım, psixoprofilaktik, psixodiaqnostik, psixokorreksiya tədbirləri və psixoloji məsləhət vasitələri ilə həyata keçirilir. Psixoloji yardım vasitəsilə insan alveri qurbanının psixoloji durumu barədə, qurbanın keçirdiyi travmalar, iztirablar, onların dərəcələri barədə məlumat əldə edilir, qurbanların daxili imkanları, həmçinin insan alveri qurbanının reabilitasiyası üçün ehtiyacları öyrənilir. Sonradan psixoloji konsultasiyanın nəticələri, insan alveri qurbanının fərdi sosial planın hazırlanmasında istifadə edilir. Fərdi sosial planda hər bir qurban üçün fərdi qaydada onun reabilitasiyası üçün ehtiyacları qeyd olunur.

**Psixiatrik və digər yardım.**

Ehtiyac olduqda qurbanların könüllü razılığı olduqda, onlar psixiatrın, narkoloqun, nevroloqun və digər mütəxəssisin qəbuluna göndərilir. Burada insan alveri qurbanlarının bu cür müalicəyə ehtiyacının olub-olmaması müəyyən edilir. Bu cür xidmətlər sığınacaqdan kənarda, ixtisaslaşmış müəssisələrdə və yalnız qurbanın könüllü razılığı əsasında və mütəxəssislərlə məxfilik müqaviləsi əsasında həyata keçirilir.

**Hüquqi yardım.**

Hüquqi yardım insan alveri qurbanların hüquqlarının izah olunması və onlara hüquqi xidmət paketinin təklif olunması üçün hüquqşünas (vəkil) və ya ictimai müdafiəçi tərəfindən hüquqi konsultasiya şəkilində həyata keçirilir. Hüquqi yardım qurbanlarının könüllü razılığı əsasında həyata keçirilir və əldə edilən məlumatlar insan alveri qurbanının reabilitasiyası və reinteqrasiyası üçün fərdi sosial planında istifadə edilir. Konsultasiya zamanı qurbanın ilkin və sonrakı hüquqi yardıma ehtiyacı öyrənilir. İnsan alveri qurbanlarının ehtiyacları aşağıdakılar ola bilər:

- İnsan alveri qurbanların sənədlərinin hazırlanması;
- Qurbanların itirilmiş və ya korlanmış sənədlərinin bərpa edilməsi;
- İnsan alveri qurbanlarının ünvanlı sosial yardımın alınması üçün müraciətlərin və sənədlərin hazırlanması;
- İnsan alveri qurbanlarının iştirakı ilə aparılan cinayət işi üzrə təhqiqat, istintaq və məhkəmə instansiyalarında təmsilçilik və nümayəndəlik.
- İnsan alveri qurbanlarına cinayət hadisəsi zamanı onlara dəymiş maddi və mənəvi zərərin ödənilməsi ilə bağlı hüquqşünas (vəkil) və ya ictimai müdafiəçi tərəfindən mülki iddia ərizəsinin hazırlanması və məhkəmədə həmin iddianın hüquqşünas (vəkil) və ya ictimai müdafiəçi tərəfindən müdafiəsi.

**Digər tədbirlər.**

İnsan alveri qurbanları sığınacaqda qaldığı dövr ərzində qurbanların reabilitasiyası və reinteqrasiyası üçün müxtəlif tədbirlər təklif olunur. Məsələn, qurbanların seminarlarda iştirakı, onların peşə kurslarına göndərilməsi, sığınacaqda bədən tərbiyəsi və idman dərslərinin keçirilməsi, sığınacaq dövründə kulinariya kursları, istedadlı və əl bacarığı olan insan alveri qurbanlarının dəstəklənməsi, insan alveri qurbanı olmuş uşaqlar üçün məktəb proqramlarının keçirilməsi, uşaq oyunlarının təşkili, təhsil proqramları, təhsildən yayınmada buraxılmış proqramların öyrədilməsi, savadsızlığın aradan qaldırılması, fərdi təlim v.s. təhsil reabilitasiya tədbirləri tətbiq olunur.

Sığınacaq dövründə hər bir insan alveri qurbanlarına qanunla müəyyən edilmiş məbləğdə reinteqrasiya dövründə müavinət ödənilir.

İnsan alveri qurbanlarının reabilitasiyası və reinteqrasiyası **Azərbaycan Res-**

**publikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərkibində** fəaliyyət göstərən İnsan alveri qurbanlarına yardım mərkəzində davam etdirilir[30].

### 3.3.5. İnsan Alverinin qarşısının alınmasına yönələn məlumatlandırma və maarifləndirmə tədbirləri

İxtisaslaşmış polis orqanı olan İnsan Alverinə Qarşı Mübarizə İdarəsində 2007-ci ildən başlayaraq "qaynar xətt" sistemi fəaliyyət göstərir. 24 saat ərzində fəaliyyət göstərən "qaynar xətt" xidmətinin əsas təyinatı insan alveri ilə mübarizə və bu növ cinayətdən zərər çəkənlərə, xüsusən qadın və uşaqlara yardım məqsədilə məlumat məsləhət xidməti göstərməkdən ibarətdir. **«Qaynar xətt»xidmətinin funksiyaları** İnsan alverinin və onunla bağlı təhdidlərin qarşısını almaq, insan alverindən zərər çəkmiş şəxslərə köməklik göstərmək, Xarici ölkələrdə işə düzəlmək, təhsil almaq, istirahət etmək, əcnəbi vətəndaşlara ərə getmək üçün müraciət edənlərə lazımi məsləhətlər vermək,Yaşayış yerindən və sosial statusundan asılı olmayaraq vətəndaşlara telefonla vaxtında və mümkün psixoloji yardım göstərilməsini təmin etmək, Kömək və məsləhət almaq üçün müraciət etmiş hər bir şəxslə etibarlı dialoqu təmin etmək, müraciətlərin ixtisaslı cavablandırılması və həll edilməsi məqsədilə abonentləri aidiyyəti üzrə istiqamətləndirməkdir.

İnsan alveri və məcburi əməyə qarşı mübarizə istiqamətində həyata keçirilən məlumatlandırma və maarifləndirmə tədbirlərində hökumət qurumları ilə yanaşı beynəlxalq təşkilatlar, bəzi ölkələrin səfirlikləri fəal iştirak edirlər. 2011-ci ildə Beynəlxalq Miqrasiya Təşkilatı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə həmkarlar ittifaqları üzvlərinə 30-dan artıq seminar keçirmişdir.

Beynəlxalq Miqrasiya Təşkilatı, Amerika Hüquqşünaslar Asossasiyası, ABŞ səfirliyi və ATƏT-in Bakı ofisi insan alverinə qarşı mübarizə sahəsində məlumatlandırma və maarifləndirmə tədbirləri həyata keçirilir. Maarifləndirici tədbirlərə hakimlər, prokurorlar, ixtisaslaşmış polis orqanının əməkdaşları, təhsil işçiləri, miqrasiya xidməti əməkdaşları, ixtisaslaşmış QHT-lərin nümayəndələri dəvət olunur.

Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası hər il qrant müsabiqəsi elan edərkən insan alverinə qarşı mübarizə tədbirləri prioritetlər sırasında olur.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi insan alverinə qarşı mübarizə tədbirlərində beynəlxalq təşkilatlarla və vətəndaş cəmiyyəti qurumları ilə əməkdaşlıq edir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı"na əsasən insan alverinin qurbanı olmuş uşaqlar ilə işləyən mütəxəssislər üçün təlimlər keçirilmişdir. 2012-ci ilin sonunda tə**şkil ol**unan

[30] Təmiz Dünya" Qadınlara yardım ictimai birliyi.İnsan alveri qurbanlarının reabilitasiya və reinteqrasiya sahəsində milli tədbirlərin qanunvericilik və praktiki quruluşunun təhlili. Bakı şəhəri 2010-cu il.

təlimlərəUNİCEF və Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansından ekspertlər dəvət olunmuşdur.

Komitənin təşkilatçılığı ilə belə tədbirlər mütəmadı olaraq təşkil olunur.

İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator 2012-ci il üçün hesabatında maarifləndirmə və məlumatlandırma tədbirləri ilə bağlı göstərilir ki:

İnsan alverinin və məcburi əməyin qurbanlarının müəyyən edilməsi sahəsində peşəkarlığın artırılması məqsədilə qeyri-hökumət təşkilatlarının, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Miqrasiya və Dövlət Sərhəd xidmətlərinin, Bakı şəhərində fəaliyyət göstərən 15 turizm şirkətinin nümayəndələri üçün treninqlər keçirilmişdir. Xüsusi polis qurumunun əməkdaşları ölkənin bir sıra televiziya kanallarında insan alveri ilə bağlı mövzulara həsr olunmuş teledebatlarda və ATƏT-in Bakı Ofisi, Beynəlxalq Miqrasiya Təşkilatı, Amerika Vəkillər Assosiyasiyası, Qızıl Aypara Cəmiyyəti tərəfindən təşkil olunan seminarlarda iştirak etmişlər. İnsan alverinin fəsadlarından bəhs edən sosial reklamlar Respublikanın bütün şəhər və rayonlarının icra hakimiyyətlərinə göndərilərək regional telekanallar vasitəsilə yayımlanmışdır. Cari ilin mart ayında isə - Milli Məclisin deputatlarının, ABŞ-ın Ədliyyə Departamentinin hüquq müşavirlərinin, Amerika Hüquqşünaslar Assosiyasiyasının Azərbaycan üzrə nümayəndələrinin və Azərbaycan Hüquqşünaslar Konfederasiyası mütəxəssislərinin iştirakı ilə insan alveri cinayətlərinin istintaqı mövzusunda Respublikanın 28 polis orqanında seminarlar keçirilmişdir[31].

### 3.3.6. Fahişəliyin qarşısının alınmasına yönələn tədbirlər

Fahişəliyin qarşısının alınmasına yönələn tədbirləri effektiv hesab etmək mümkün deyildir. Cinayət Məcəlləsində Fahişəliyə cəlb etmə (243-cü maddə), Yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etmə (171-ci maddə) kimi maddələr nəzərdə tutulmuşdur. Eyni zamanda qeyd olunduğu kimi fahişəliyə cəlb etmə həmçinin insan alverinə səbəb olursa bu Cinayət Məcəlləsinin 144-1 maddəsində nəzərdə tutulan ağır və xüsusi ilə ağır cinayət əməli hesab olunur.

**İnzibati Xətalar Məcəlləsində** isə fahişəliklə məşğul olmaya görə cərimə nəzərdə tutulur.

Praktikada həm Cinayət Məcəlləsinin həm də İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tətbiq olunması halları vardır. Bununla belə fahişəliyin qarşısının alınmasına yönələn praktiki fəaliyyətlər zəifdir. Səbəblərin öyrənilməsi, sosial iqtisadi şəraitin təsirləri barədə hər hansı ciddi araşdırmalar yoxdur. Fahişəliyə cəlb olunan şəxslər insan alverinin potensial qurbanlarıdır və əksəriyyət hallarda insan alverçiləri məhz bu insanları qurban kimi seçirlər.

Eyni zamanda fahişəliyə cəlb olunmuş şəxslər sonradan insan alverinin qurbanına çevrildikdə cinayət təqibini həyata keçirən orqanlar onları bəzən insan alverinin qurbanı kimi tanımırlar. “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin bu istiqamətdə tədqiqatlarında konkret misallara istinadlar edilir. Məsələn:

[31] İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinator, daxili işlər nazirinin müavini Vilayət Eyvazovun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2012-ci il üzrə hesabatı

"A.C 13 yaşında bibisi tərəfindən Qusar rayonundan Bakıya gətirilərək ölkə daxilində xarici bir vətəndaşla münasibətdə olmağa məcbur edilir. Bibisi onu başqa şəxslərə satmağa davam edir. Daha sonra A.C-ni ondan yaşca böyük M.R. saxlayır. O A.C-ni azyaşlarından başlayaraq oğurluq etməyə məcbur edir. A.C, pul qarşılığında xidmət göstərdiyi insanlardan M.R-in (saxlayanın) məcbur etməsi ilə pul oğurlayar. 17 yaşında oğurluq etdiyi müştərinin şikayəti ilə həbs edilir. Daha sonra İnsan alverinə qarşı mübarizə aparan QHT-nin köməkliyi ilə azad edilir. Ancaq artıq ailədə qurmuş M.R onu tapır ona qarşı küçədə hər kəsin gözü qarşısında zor işlədərək A.C-ni müvəqqəti yaşadığı ünvandan qaçırdır. Ona hədə qorxu gələrək yenə də A.C ilə münasibət qurur. İşin istintaqını aparan orqan isə A.C-nin əvvəllər fahişəlik etdiyini əsas gətirərək əməldə cinayət tərkibi olmadığı qərarını verib və cinayət işinə xitam vermə qərarı qəbul etmişdir".

Belə olduqda insan alveri ilə məşğul olan şəxslər nisbətən yüngül cəza alırlar. Belə ki, bu şəxslərə Cinayət Məcəlləsinin 144-1 maddəsi deyil, 171.1 maddəsi tətbiq edilir.

## 3.4. TÖVSIYYƏLƏR

### 3.4.1. Ailə münasibətlərinin rəsmiləşdirilməsi və erkən nigahlarla bağlı

1.Cinayət Məcəlləsində qadını nigaha daxil olmağa məcbur etmə ilə bağlı cəza nəzərdə tutulur (maddə 176-1). Cəza iki min manatdan üç min manata qədər cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər nigah yaşına çatmayan şəxs barədə törədildikdə üç min manatdan dörd min manatadək cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə cəzasını nəzərdə tutur.

Azərbaycanda formalaşan adətlər nəzərə alınarsa bu cəzalar yüngüldür və törədilən əmələ adekvat deyildir. Bu baxımdan cinayət təqibi sərtləşdirilməlidir.

2.Ailə Məcəlləsinə əsasən (Maddə 1.5.)"Dini kəbinkəsmə (dini nigah) hüquqi əhəmiyyətə malik deyildir". Dini kəbin yalnız rəsmi nigah bağlandıqdan sonra həyata keçirilə bilər. Lakin praktikada din xadimləri qanunvericiliyin tələbini pozaraq rəsmi nigah olmadan dini kəbinlər kəsməkdə davam edirlər. Bunlardan bir çoxu rəsmi nigah yaşına çatmayanlar üçün dini kəbinlərdir. Qanunvericilik bununla bağlı nə inzibati, nə də cinayət məsuliyyəti nəzərdə tutmur.

Rəsmi nigah olmadan dini kəbin kəsənlərə qarşı həm inzibati, həm də cinayət məsuliyyəti nəzərdə tutulmalıdır. Nigah yaşına çatmayanlara dini kəbin kəsənlərə münasibətdə daha sərt məsuliyyət nəzərdə tutulmalıdır.

### 3.4.2. Qadınlara qarşı zorakılığın aradan qaldırılması ilə bağlı

Məişət zorakılığının qarşısının alınmasına yönələn tədbirlər içərisində sığınacaqların yaradılması xüsusi aktuallıq kəsb edir. Sığınacaqlar yalnız paytaxt Bakıda deyil, həmçinin regionlarda təşkil olunmalıdır. Dövlət vəsaiti ilə yaradılan sığınacaqlar "Sosial Xidmət Haqqında" Qanuna müvafiq olaraq tenderlər yolu ilə qeyri-hökumət təşkilatlarının və digər qeyri dövlət hüquqi şəxslərinin idarəçiliyinə verilməlidir;

Məişət zorakılığının profilaktikası məqsədi ilə sosial işçilər, sosial xidmətçilər, sosioloqlar, psixoloqların hazırlanaması üçün xüsusi təhsil proqramları hazırlanma-

lı və bu proqramlar çərçivəsində peşəkar işçilər hazırlanmalıdır;

Cinayət əməli olmayan məişət zorakılığının qarşısının alınması üçün ixtisaslaşmış polis bölmələrinin yaradılması məqsədə uyğundur. Polislərin əsasən qadınlardan təşkil olunması məişət zorakılığı olan ailələrdə zorakılığın qarşısının alınmasında effektiv rol oynamaqla yanaşı ailələrin dağılmasının qarşısının alınmasında əhəmiyyətli rol oynaya bilər;

